Xalqın qəzeti!
# Xalq qəzeti
№ 180 (30296) 24 avqust 2023-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Füzuli şəhərinin ilk sakinləri doğma yurdlarına qayıdıblar. Uşaqlar Özbəkistandan olan qardaşlarımız tərəfindən hədiyyə edilən məktəbdə oxumağa başlayacaqlar. Bu, Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsidir və biz bu qardaşlıq, həmrəylik, dəstək jestini çox yüksək dəyərləndiririk.**

# Qarabağa qardaşlıq töhfəsi

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri

### Füzuli Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasında dövlət səfərində olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev avqustun 23-də Füzuli rayonuna gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşıladılar.

### Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı



**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.**

Dövlət başçıları və xanımları əvvəlcə yeni dərs ilində bu məktəbdə təhsilə başlayacaq şagirdlərlə və burada işləyəcək müəllimlərlə görüşüb söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salam uşaqlar, necəsiniz?

**Uşaqlar:** Salam, yaxşıyıq.

**Qadın sakin:** Xoş gördük, cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Prezident Şavkat Mirziyoyev:** Salaməleyküm.

**Qadın sakin:** Salam, xoş gəlmisiniz.

**Birinci xanım Mehriban Əliyeva:** Güllər var, çiçəklər var, salam balalar, salam.

*(ardı 2-ci səhifədə)*

# Qarabağ amili, İrəvan seçkisi və Ermənistan dövlətçiliyinin taleyi

Səhifə ⇨ 4

## "Qardian"ın "erməni sevgisi"nin arxasında nə dayanır?



**"Qardian" qəzeti yenə öz ampluasındadır. Azərbaycana qarşı hər zaman qarayaxma kampaniyası aparan bu mətbuat orqanı növbəti dəfə ermənilərin yalan dəyirmanına su tökməklə fərqlənib. Nəşrin Lyuk Hardinq adlı müxbiri "Bizim küçələrdə ölməyimizi istəyirlər": Dağlıq Qarabağ blokadası daxilində" başlıqlı yazısında erməni yalanlarına yer verib, oxucularına obyektiv məlumat çatdırmayıb. Materialı oxuyarkən belə qənaətə gəlmək olur ki, müxbir həqiqəti yox, ermənilərə dəstək vermək üçün belə bir yazını qələmə alıb.**

Müəllif ermənilərin iddia etdikləri "blokadanın reallıqlarını" hiss etdirmək üçün ucuz ədəbi fəndlərə əl atıb. Məsələn, yazının əvvəlində Hoviq Asmaryan adlı erməninin sözlərinə yer verib: "Biz kartofu qovururuq. Sonra da onları bişiririk. Bu, mənim və ailəm üçün sağlam həyat tərzidir. Tərəvəz yeyirik, gəzirik və velosiped sürürük. Amma bu zorladır". Kartof yeyən "zavallı erməni"... Yemək olmayanda ucuz və doyumlu kartof yeyərlər, qıtlıq şəraitində onu əl-əl gəzərlər. Kartof həm də daha çox müharibələrdə insanları aclıqdan xilas edən qidadır. Qida rasionuna təkcə kartof daxildirsə, deməli vəziyyət kritikdir. İngilis müxbir də ermənilərin "ağır sosial-iqtisadi vəziyyətlərini" dramatikləşdirmək üçün beləcə rəngləri qaraltmağa çalışıb.

*(ardı 4-cü səhifədə)*

## Qarabağdan erməni köçü



**Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan və separatizm tərəfdarı olan erməni əsilli şəxslərin Ermənistana köçü davam edir. Əgər əvvəlki günlərdə köç edənlər əsasən Ermənistan və Rusiya ali məktəblərində oxumağa gedən tələbələr idisə, dünən orta yaşlı insanların gedişi qeydə alınıb.**

(ardı 5-ci səhifədə)

## On yeddi yaşlı Elen "real təhlükə" mənbəyidir

**Yalanla doğrunun, utopiya ilə reallığın sərhədində azıb qalmış erməni cəmiyyətinin başı hələ də daşnakların, radikal-revanşistlərin boş hay-küyünün yaratdığı dumandan ayılmır. İllərlə beyinlərinə pərçim edilmiş ehkamları silib-təmizləmək nə qədər çətin olsa da, reallığa və həqiqətə qovuşmağın başqa yolu yoxdur. Xislətlərini sarımış şovinizm adlı xəstəliyin zərərli və yoluxucu virusundan xilas olmağın da bir yolu var: ədalətli olmaq, haqqı danmamaq!**



*(ardı 6-cı səhifədə)*

## Rusiya–Ukrayna müharibəsi: nə qələbəyə güman var, nə savaşa aman…

Səhifə ⇨ 11



## İranda Zəngəzur dəhlizinə ikili münasibət




Səhifə ⇨ 9

## Dünya bazarında "dizel çatışmazlığı"



Səhifə ⇨ 7

## Qafqazdan Mərkəzi Asiyaya möhtəşəm dostluq körpüsü

Səhifə ⇨ 5

# Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı



(əvvəli 1-ci səhifədə)

**Qadın sakinlər:** Salam, xoş gördük, Mehriban xanım.

**Prezident İlham Əliyev:** Uşaqlar, bu məktəbi mənim qardaşım, hörmətli Şavkat Miromonoviç Füzuli şəhərinə hədiyyə edib. Xahiş edirəm ki, mənim qardaşımı səmimiyyətlə salamlayaq.



**Məktəbin direktoru Həcər Mahmudova:** Cənab prezidentlər, mən də icazənizlə, Sizi burada olan müəllimlərimiz, şagirdlərimiz, valideynlərimiz adından salamlayıram. Sizləri bu möhtəşəm məktəbdə görməkdən qürur duyuruq. Otuz il öncə 26 yaşında bu şəhəri tərk edən sakini kimi mən demək olar ki, eyni tarixlərdə, – bir gün fərqi var, – buraya



qayıtmışam. Bu anları bizə yaşatdığınıza görə Sizə təşəkkür edirik, qalib ordumuza minnətdarıq. Bu gözəl məktəbi tikib bizə bəxş etdiyinə görə Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyevə və onun timsalında Özbəkistan xalqına minnətdarıq. Cənab Mirziyoyevdən xahiş edirik ki, bizim Füzuli sakinlərinin bu minnətdarlığını öz xalqına, özbək xalqına çatdırsın.

**Prezident Şavkat Mirziyoyev:** Çox sağ olun.

**Həcər Mahmudova:** Biz pedaqoji kollektivin üzvləri birlikdə sizləri əmin edirik ki, bu məktəbdə təhsil alacaq şagirdlərin gələcəkdə yüksək bilik-bacarığa, eyni zamanda, milli-mənəvi dəyərlərə sahib bir vətəndaş olaraq yetişməsində var qüvvəmizlə çalışacağıq. Sizə minnətdarıq, bir daha çox sağ olun.

**Prezident Şavkat Mirziyoyev:** Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Məktəbə Mirzə Uluqbəyin adı verilib.

**Həcər Mahmudova:** Bəli, Əmir Teymurun nəvəsi.

**Prezident İlham Əliyev:** Bəli, Əmir Teymurun nəvəsi, özbək xalqının böyük oğlunun adı verilib. Bu məktəb Özbəkistan–Azərbaycan dostluğunun, qardaşlığının bir mərkəzi olacaq.

**Həcər Mahmudova:** Biz buna çalışacağıq. Təşəkkür edirik Özbəkistan Prezidentinə, təşəkkür edirik özbək xalqına, minnətdarıq.

**Prezident Şavkat Mirziyoyev:** Sağ olun.

***

Dövlət başçıları məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.

***

**Prezident İlham Əliyev:** Xeyirli, uğurlu olsun.

**Prezident Şavkat Mirziyoyev:** İnşallah, uğurlu olsun.

Sonra xatirə şəkli çəkildi.

Daha sonra dövlət başçılarına və xanımlarına məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Ötən il başlanılan tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib.



Sonra görülən işlərlə bağlı məktəbin akt zalında videoçarx nümayiş etdirildi.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

# Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Füzuli şəhərində





**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər.**

**Sakinləri təbrik edən Prezident İlham Əliyev dedi:**

– İlk növbədə, sizi təbrik edirəm, öz vətəninizə xoş gəlmisiniz. Otuz il Vətən həsrəti ilə yaşamış insanlar artıq öz dədə-baba torpağına qayıdıblar və burada yaşayırlar. Beş gün bundan əvvəl birinci qrup Füzuli sakinləri Füzulidə yerləşdi, gözəl evlərdə yerləşdi və bundan sonra burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz.

Mən bu gün əziz qardaşım Şavkat Miromonoviç ilə birlikdə sizinlə görüşə gəlmişəm. Bildiyiniz kimi, hörmətli Prezidentin əmri ilə Füzulidə Mirzə Uluqbəyin adını daşıyan gözəl məktəb inşa edildi. Sizin uşaqlarınız, nəvələriniz artıq sentyabrın 15-dən başlayaraq bu məktəbdə oxuyacaqlar. Bu gözəl hədiyyəyə görə sizin adınızdan əziz qardaşıma bir daha təşəkkür edirəm.



Sizi bir daha ürəkdən təbrik edirəm. Burada rahat, xoşbəxt yaşayın!

***

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev dedi:**

– Əziz dostum və qardaşım İlham Əliyev ilə Qarabağa, Füzuliyə səfərim ürəyimdəki böyük arzularımdan biri idi. Bu Qələbə üçün qardaşımın çiyninə çətin vəzifələr düşdü. Amma bu vəzifələr onun ədaləti və həqiqəti bərpa etmək üçün göstərdiyi bütün səylərin nəticəsidir ki, qardaşım Qarabağda Qələbə qazandı. Bu Qələbəni ancaq Vətəninin böyük övladı, xalqını sevən belə müdrik Prezident qazana bilər. Belə bir Prezident qardaşımızın varlığından qürur duyuruq.

Bizim böyük Qarabağda əsrlər boyu davam edən birliyimiz var. Babamız Əmir Teymurdan başlayan münasibətlərimiz indi də çox yaxşıdır. Qardaşımın Qələbəsindən sonra iki xalqın böyüklüyü, gələcəkdə də bir-biri ilə dostluğunu davam etdirməsi üçün bir məktəb tikdirmək arzusunda idim. Bu gün arzum gerçəkləşdi. Mən sizləri qayıdışınız və Qələbəniz münasibətilə təbrik edirəm. Sizlərin gələcək həyatınızın firavanlığı üçün qardaşım İlham Heydər oğlu Azərbaycanın dünya birliyində ildən-ilə nüfuzunu artırır. Görülən işlər gözəl nümunədir və biz bu xəbərləri eşitməkdən, bu möhtəşəm işləri görməkdən ancaq xoşbəxtik.

Bu məktəb səmimi dostluğumuzun gələcəyinə bir abidə olacaq desəm, doğru olardı. Fürsətdən istifadə edərək, bu məktəbdə təhsil alan uşaqlarımızı ildə iki dəfə Uluqbəyin vətəninə, Özbəkistana, Səmərqəndə dəvət etdim. Qardaşımdan bir daha xahiş edirəm, uşaqlar valideynləri ilə gəlsələr, daha çox məmnun olaram.

Bizdə çox gözəl bir məsəl var ki, sevgi gözdədir. Bir-birimizi görə bildikcə sevgi artır. Birliyimiz səmimi, dostluğumuz əbədi olacaq. Bu, mənim istəyimdir. Mən sizi görməyimdən çox məmnunam.

Bundan sonra sizə yalnız sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram. Sağ və salamat qalın.

***

Füzuli rayon sakini Elnur Nərimanzadə dedi: Möhtərəm cənab prezidentlər, Sizi Füzuli şəhərinin sakinləri adından salamlayırıq.

1993-cü il avqustun 23-də, – mənim 3 yaşım var idi, – bu torpaq işğal olundu. Bu gün biz öz doğma yurdumuza qayıtmışıq. Cənab Prezidentimizin göstərişi ilə bu gözəl evlər tikilib, biz bu gözəl evlərə köçmüşük. Hazırda buradayıq, öz torpağımızdayıq, öz yurdumuzdayıq. Buna görə cənab Prezidentimizə təşəkkür edirik.

Bu gün, cənab Prezident Mirziyoyev, Sizə təşəkkür edirik ki, bizim üçün, övladlarımızın təhsil almaları üçün belə gözəl bir məktəb tikdirmisiniz. Çox sağ olun, minnətdarıq.

**Prezident Şavkat Mirziyoyev:** Sağ olun.

**Sakin:** Dostluğunuz, qardaşlığınız əbədi olsun! Sizi təbrik edirəm, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm.

**Sakinlər:** Sağ olun. Allah Sizdən razı olsun. Çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Təşəkkürlər, sağ olun.

**Sakinlər:** Sağ olun.

***

Sonra dövlət başçılarına və xanımlarına Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən tikilmiş yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 8,9 hektar olan kompleks 38 yaşayış binasından ibarətdir. Binalar 4, 5, 6 və 7 mərtəbəlidir. Bu binalarda ümumilikdə 846 mənzil olacaq ki, onlardan 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur.

Hazırda kompleksin inşası sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Altı bina və 144 mənzildən ibarət birinci məhəllənin tikintisi cari il avqustun sonlarında başa çatdırılacaq. Altı bina və 123 mənzildən ibarət ikinci məhəllə isə sentyabrda təhvil veriləcək. Ümumilikdə, 579 mənzildən ibarət daha 26 binanın tikintisi bu ilin sonlarında başa çatdırılacaq.

Burada bütün mənzillər tam təmirli, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz olunaraq sakinlərin istifadəsinə veriləcək. Bütün binalar mərkəzləşdirilmiş qazanxana vasitəsilə istilik və liftlə təmin ediləcək.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, giriş və çıxış pandusları, istirahət guşələri, uşaq oyun və idman meydançaları da yaradılacaq.

***

Sonda xatirə şəkilləri çəkdirildi.

# Füzulinin Baş planı ilə tanışlıq

**Avqustun 23-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərinin Baş planı ilə tanış olublar.**

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə, xanımı Ziroatxon Mirziyoyevaya Füzulidə görülən və görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq.

Yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial park, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, Baş planda Füzuli şəhərinin dayanıqlı inkişafı, ağıllı həllər əsasında qurulması və insanların sağlam həyatını təmin etmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və xanımı Ziroatxon Mirziyoyevaya işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə də məlumat verildi.



# Prezidentlər və xanımları Şuşada







**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Şuşa şəhərinə səfər ediblər.**

Dövlət başçıları və xanımları əvvəlcə Saatlı məscidində olublar.

Özbəkistan Prezidentinə və xanımına məlumat verildi ki, məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəllər Molla Pənah Vaqifin dərs dediyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi, Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb və bu ilin may ayında məscidin açılışı olub.

Sonra prezidentlər və xanımları Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisinə baxdılar.

Prezidentin köməkçisi Anar Ələkbərov Özbəkistan Prezidentinə və xanımına Mərkəz və sərgi barədə məlumat verdi.

Bildirildi ki, Yaradıcılıq Mərkəzi Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra bu il mayın 10-da istifadəyə verilib. Bina ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır.

Qeyd edildi ki, “Heydər Əliyev və Qarabağ” sərgisində ulu öndərin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf sahələrindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Eləcə də sərgidə ümummilli liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

Diqqətə çatdırıldı ki, 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu il yanvarın 12-də Ümummilli liderin iştirakı ilə Ağdam–Xankəndi dəmir yolu açıldı. Bu, ulu öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu öndər Şuşanın inkişafına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirirdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllləbaran edilmiş heykəllərinə baxdılar.

İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb.







Bildirilib ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər Prezident İlham Əliyevin göstərişi ilə əvvəlki yerlərinə qoyulub.

Sonra ali qonaq və xanımı Şuşanın Baş planı ilə tanış oldular.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov şəhərin Baş planı barədə ali qonağa və xanımına məlumat verdi. Qeyd edildi ki, şəhərin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri əksini tapıb. Hazırda Baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir.

Natəvan bulağı ilə tanışlıq zamanı qeyd olundu ki, Şuşa işğaldan azad edildikdən qısa müddət sonra istifadəyə verilən “Xan qızı” bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şairə kimi deyil, xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti “Xan qızı” bulağı adı ilə məşhur idi. İşğal dövründə suyu quruyan bulaq yenidən sakinlərin və şəhərin qonaqlarının istifadəsindədir.

Özbəkistan Prezidenti və xanımı Yuxarı Gövhər Ağa məscidi ilə də tanış oldular. Məlumat verildi ki, Yuxarı Gövhər Ağa məscidi ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Şuşa şəhəri işğal altında olduğu müddətdə bu məscid ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin sonlarından başlanan bərpa işlərindən sonra bu ilin mayında məscidin açılışı olub.

Sonra Özbəkistan Prezidenti və xanımı Bülbülün ev-muzeyində oldular.

Ali qonağa və xanımına məlumat verən Polad Bülbüloğlu bildirdi ki, ümummilli lider Heydər Əliyevin göstərişi əsasında keçmiş Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin muzeyə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşa işğaldan azad olunduqdan sonra isə Bülbülün ev-muzeyində də bərpa işləri aparılıb və 2021-ci il avqustun 29-da muzeyin açılışı olub.

Mehmandarovların malikanə kompleksi ilə tanışlıq zamanı bildirildi ki, bu kompleks Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir.

Diqqətə çatdırıldı ki, 2021-ci ilin oktyabrından etibarən Heydər Əliyev Fondu tərəfindən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidində və bulaqda təmir-bərpa işləri aparılıb. Evin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrün texnologiyalarına uyğun bərpa edilib. Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. “Qarabağ zadəganının evi” mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb. Zadəgan malikanəsinin qonaq otağı evin siması olduğundan burada ən müasir interyer elementlərindən istifadə edilib. Otaqda milliliyi nümayiş etdirən elementlər də var. İnteryerdə dövrün fotoçərçivələrinə salınmış məlumat və portretlər asılıb. İnteryer təəssüratını pozmamaq üçün foto və məlumatların çərçivələri dövrə uyğun hazırlanıb. Fotolar Şuşanın tanınmış zadəgan nəsillərinə – Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aiddir. Malikanədəki otaqları milli əşyalarla yanaşı, Avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilib. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə olunub.

Sonra dövlət başçıları və xanımları Cıdır düzündə oldular.

Ali qonağa və xanımına məlumat verildi ki, Cıdır düzü Şuşanın rəmzlərindən biri, tarixən cıdır yarışlarının və Qarabağ xanlığı dövründən yerli türk əhalinin Novruz bayramını və digər el şənliklərini keçirdiyi ərazidir.

Şuşa ilə tanışlıq qonaqlarda dərin təəssürat doğurub.



## Səfər başa çatıb

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycan Respublikasına dövlət səfəri avqustun 23-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin



Hüseynov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

# Qarabağ amili, İrəvan seçkisi və Ermənistan dövlətçiliyinin taleyi

## Ruben Vardanyanın "Telegram manifesti"nə sözardı

**Qarabağdakı separatçı rejimin keçmiş "dövlət naziri" Ruben Vardanyanın özünün "Telegram" kanalında son dəfə yazdığı fikirlər düşündürücüdür. O, faktiki olaraq, Ermənistandakı indiki iqtidarı devirməyə çağırır. Bunun üçün şans da yaranıb. Söhbət İrəvan rəhbərliyini müəyyənləşdirəcək sentyabr seçkilərindən gedir.**



Baş nazir Nikol Paşinyan administrasiyasının var gücü ilə hazırlaşdığı proses çox önəmlidir. Çünki paytaxt ölkə əhalisinin yarısı deməkdir. Ona rəhbərlik isə hakimiyyətə alternativlik, onun qərarlarını mübahisələndirmək perspektivini leqallaşdırmağa doğru önəmli addımdır. Yəni, sentyabr seçkisi Vardanyanın da dediyi kimi, yalnız kanalizasiyalara, bələdiyyələrə və müxtəlif obyektlərə nəzarət şansı vermir.

Digər tərəfdən, proses həm də ona görə əhəmiyyətlidir ki, qalib özünü hazırkı iqtidara alternativ saymaq və bu düşüncəni xalq kütlələrinə yeritmək üçün müstəsna mənəvi dividend qazanmış olacaq. Deməli, Vardanyanın İrəvan meriyasına seçkilərə köklənməklə nə etmək istədiyi məlumdur. Məqsədi, paytaxtda ikihakimiyyətlilik formalaşdırmaqla "Paşinyan erasını" bitirməkdir.

***

Əlbəttə, Vardanyanın istəyinə çatması şübhəli məsələdir. Yəni, Rubenin dili ilə desək, "xədimlərin" "satqınlarla" psevdomübarizəsinin yerini hər şeyi bilən, istəyən və bacaran yeni qüvvənin tutub-tutmayacağı müəmmadır. Vacib məqam onun Qarabağ və seçki məsələsini bir müstəviyə gətirməsidir. Daha doğrusu, Qarabağ, seçki və Ermənistan dövlətçiliyi məsələsini.

Belə görüntü var ki, Qarabağ yoxdursa, erməni dövlətçiliyi də yoxdur. Özü də bu düşüncəni təlqin edən təkcə R.Vardanyan deyil. Ermənistan daxilində oxşar fikirdə olan kəsim kifayət qədər aktivdir. Ruben hazırda Paşinyan iqtidarına qarşı demarş xətti götürübsə, belələri baxışlarını hər zaman açıq şəkildə bildirməkdən çəkinməyiblər.

Bəli, əsas məsələ "Qarabağ yoxdursa, Ermənistan dövləti də yoxdur" deyimidir. Bu deyim, erməni ictimai rəyində, bir növ, klişeləşib, ehkamlaşaraq kif atıb. Əslində, müasir Ermənistan dövlətçiliyi məhz onun üzərində qurulub. Diqqət yetirək, keçmiş SSRİ dağılmağa doğru gedən vaxt, müttəfiq respublikalar müstəqilliklərini əldə etmək üçün mübarizə apardılar. Ayrı-ayrı xalqların məqsədi imperiya buxovlarından azad olmaq idi. Bəs, avantürizmə meyillənmiş erməni xalqı nə üçün mübarizə apardı? Qarabağ uğrunda. Başqasının torpağını əldə etmək naminə. "Qarabağ missiyası" uğur qazandı, torpaqlarımızı işğal etdilər, ancaq bu uğur tam qələbə demək deyildi. Qələbə qazanılsaydı, erməni avantürizmi Türkiyə ərazisinə keçid alacaqdı. Onun Ağrıdağ sevdası başlayacaqdı...

Sözümüz ondadır ki, erməni qövmü hələ lap əvvəldən özünün azadlığını və dövlətçiliyini əlindəkini qorumaq deyil, malik olmadığına sahiblənmək üzərində təsəvvürə gətirdi və bu təsəvvürünü reallaşdırmağa çalışdı. Ermənistan otuz ilə yaxın Azərbaycanın ərazilərini işğalda saxladı. Həmin müddətdə ölkədə hakimiyyətdə olmuş qüvvələr isə Qarabağ klanının təmsilçiləri idilər. Bəs, bu klan necə hakimiyyətə gəldi?

Qarabağ klanı iqtidara az-çox normal düşüncə sahiblərinə qarşı müqavimətlə, repressiyalarla və qətllərlə yiyələndi. 1998-ci ilin fevralında Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın istefasını xatırlayaq. Həmin ilin martında Qarabağ klanının təmsilçisi Robert Koçaryanın hakimiyyətə gəlişini də. Mənzərəni tamamlamaq üçün Koçaryanın 1999-cu ilin parlament seçkilərindən sonra faktiki olaraq əlinin-qolunun bağlanmasına da nəzər salaq. Həmin vaxt Karen Demirçyan başda olmaqla bir sıra qüvvələr Azərbaycanla xoş münasibətlərin qurulmasında maraqlı idilər. Onlar anlayırdılar ki, ölkələri torpaqlarımızı işğal edib və işğal davamlı ola bilməz.

Bəs, sonra nə oldu? 1999-cu ilin oktyabrında Ermənistanda parlament terroru yaşandı. Demirçyan və tərəfdarları məhv edildilər. Bundan sonra Koçaryanın mütləq hakimiyyəti formalaşdı və Azərbaycanla müsbət nəticə vəd edən danışıqlar prosesi iflasa uğradı. Daha sonra baş verənlər isə məlumdur. Koçaryanı Qarabağ klanının digər nümayəndəsi Serj Sarkisyan əvəzlədi və Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanması tam şəkildə dalana dirəndi, mənasız və nəticəsiz danışıqlar mərhələsi başlandı. Rəsmi İrəvanın saysız-hesabsız manipulyasiyalarını, imitasiyalarını gördük...

***

Baxın, Ruben Vardanyan avqustun 22-dəki "Telegram manifesti"ndə erməni xalqını ittiham edir. O, "keçmişlər" ifadəsini işlədərkən, Ermənistanın əvvəlki rəhbərliyini nəzərdə tutur və yazır ki, "keçmişlər" mübarizədən üz döndərdilər. Çünki gördülər ki, xalq yuxudadır və yuxuda olmağı xalqa bağışlaya bilmədilər. Deməli, Paşinyan xalqın yuxuda olmasına görə hakimiyyətə gəldi.

Əslində, Nikolun iqtidara sahiblənməsi, böyük ölçüdə, erməni xalqının köhnə stereotiplərdən uzaqlaşmaq əzminin nəticəsi idi. Paşinyan seçkiqabağı təbliğat-təşviqat kampaniyasında Qarabağ klanına qarşı mübarizə apararkən, bütövlükdə, Azərbaycanla münaqişənin zərərlərini açıqlayır, Qarabağın Ermənistan üçün lazım olmadığını bildirirdi. Onun düşüncəsi xalq arasında da populyar idi.

Əlbəttə, populyarlığın bir səbəbi kimi, klanın illərlə erməni xalqına verdiyi zülmdən və məhrumiyyətlərdən söz aça bilərik. Hər bir halda sıravi erməninin "miatsum" xəstəliyindən qurtulma şansı yaranmışdı və bu cəhət Nikolu da şanslı elədi. Bəs, Paşinyan nə etdi? O, özünü "demokratiyanın qladiatoru" obrazında gördü və bildirdi ki, "Qarabağ Ermənistandır və nöqtə".

Əlqərəz, N.Paşinyan da Qarabağ avantürasından əl çəkmədi və bunun Ermənistan üçün qorxunc aqibətini 44 günlük müharibə tam şəkildə ortaya qoydu. Bəs, Nikol müharibə nəticəsində ölkəsinin üzləşdiyi rüsvayçılığa bəraət qazandırmaq üçün nə etdi? O, Rubenin nəzərində tutduğu "keçmişlər"i günahlandırmağa girişdi. "Keçmişlər"i ittiham etmək və "keçmişlər"ə xalq nifrətini körükləmək Paşinyana 2021-ci ilin növbədənkənar parlament seçkilərində uğur qazandırdı. Tarixdə müharibə məğlubu olan iqtidarın hakimiyyətdə qalması çox nadir hadisələrdəndir ki, Nikol belə bir şansı tutmağı bacardı. Üstəlik, "Qarabağ Ermənistandır və nöqtə" səhvini düzəltmək üçün şərait yarandı.

Paşinyan hər cür təxribatlarına və fitnə-fəsadlarına baxmayaraq, Azərbaycanın Qarabağ da daxil olmaqla 86,6 min kvadratkilometrlik ərazidə suveren hüquqlarını tanıdığını bildirdi. Ancaq indi görünür ki, Ermənistan hakimiyyəti var gücü ilə bu deyimdən imtina etməyə, yeni reallıqlar formalaşdırmağa çalışır. Hazırda Nikol iqtidarı Qarabağ məsələsinə münasibətdə Koçaryan-Sarkisyan tandemindən heç də az destruktiv mövqe tutmur. Ancaq onun ikincilərdən fərqli olaraq, lazımi siyasi və hərbi resursu yoxdur.

Bəli, Paşinyanın resursu yoxdur, həm də o səbəbdən ki, onun iqtidarı Ermənistanın Rusiyaya xəyanətinin nəticəsi kimi meydana çıxmış hadisədir. Rusiya Ermənistan iqtidarına nankor kimi baxır. Əlbəttə, belə yanaşma Moskvanın erməni sevdasını arxa plana keçirmir. Kremldə hələ də düşünürlər ki, İrəvan onların orbitinə qayıdacaq. Bunun üçün çeşidli siyasi texnologiyalara əl atırlar. Əslində, haqqında söz açdığımız 2021-ci ilin növbədənkənar parlament seçkisi həmin texnologiyaların işə düşməsindən xəbər verirdi. Lakin Rusiya istəyinə nail ola bilmədi.

***

İndi isə bilavasitə Vardanyan amili üzərində dayanaq. Məlum olduğu kimi, Ruben Rusiyanın dairələrinə yaxınlığı ilə seçilən yarısiyasət, yarıbazar təmayüllü çirkin bir fiqurdur. Onun Qarabağa yerləşdirilməsi həmin dairələrin bölgə üzərinə oynadıqları oyundan irəli gələn tədbirdir. Vardanyan 2018-ci il seçkilərində məğlubiyyətə uğramış Koçaryan-Sarkisyan xuntasının bir qədər fərqli zühurudur. Rusiya 2021-ci il seçkisində ölkə daxilindəki vardanyanları işə salmışdı ki, Paşinyanı devirsin.

Hazırda Rubenin Ermənistan hakimiyyəti əleyhinə açıq demarşları, erməni xalqında anti-Paşinyan ovqatı formalaşdırmağa hesablanmış qatı fikirləri onu deməyə əsas verir ki, Nikolu seçki yolu ilə uzaqlaşdırmaq planları aktuallığını saxlamaqdadır. Əlbəttə, bu fondakı ən maraqlı məqam Qarabağ kartının yenidən işə salınmasıdır.

Baxın, R.Vardanyanın seçkiyə hesablanmış Qarabağ ritorikasında erməni namusu və qeyrəti kimi məsələlər ön plandadır. O, bölgəni əldə saxlamağı, Azərbaycanın tabeçiliyinə keçməsinə imkan verməməyi, Ermənistan dövlətinin bütövlüyünü qorumaqla eyniləşdirir. Məlum "Qarabağ yoxdursa, Ermənistan da yoxdur" devizinə baş vurur. Yəni, faktiki olaraq, 1988-ci ilə qayıdır. Ona da diqqət yetirək ki, Paşinyan iqtidarı da artıq həmin devizin təsirinə məruz qalıb. Nikol və komandası hakimiyyətdə olduğu müddətdə bu mənfi tendensiyanı yenə bilmədi.

"Qarabağ Ermənistandır və nöqtə" bəyanatı və acınacaqlı müharibə məğlubiyyətindən sonrakı təzyiqlər Paşinyana imkan vermir ki, Qarabağ amilini ölkənin düşüncə seqmentindən birdəfəlik çıxarsın. Halbuki, bunun üçün lap əvvəldən yaxşı zəmin yarandığını vurğuladıq. Nikol sözünə və baxışına dönük çıxmaqla həmin zəmini yox elədi. İndi Qarabağ avantürizminin arxasınca sürünməyə məhkumdur. O, bir siyasətçinin şəxsi planda yaşayacağı ən böyük faciənin əsəridir.

Onu da nəzərə alaq ki, N.Paşinyanı hakimiyyətə gətirən qüvvələr onu Cənubi Qafqazda demokratiya örnəyi olmaq üçün "silahlandırmışdılar". Yəni, demokratiya bölgəni rus təsirindən qurtarmaq hədəfinə köklənmişdi. Nikol siyasi əqidəsini Qarabağ avantürasına dəyişdi və hazırda avantüra o qədər güclənib ki, Paşinyan iqtidarı da hakimiyyətdə qalmağın yolunu barışmazlıq meyillərinə güc verməkdə görür.

Diqqət yetirək, İrəvan meriyasına seçkilər öncəsi Nikol və komandası anti-Azərbaycan bəyanatlarını sıralayır, artıq baş nazirin Qarabağ da daxil olmaqla, ölkəmizin ərazi bütövlüyünü tanımasına dair fikirləri, eləcə də mövcud xüsusda Bakı-İrəvan münasibətlərinin normallaşacağına, regionda sülhün yaranacağına dair təsəvvürləri arxa plana keçib. Üstəlik, Paşinyan ittihamla da üz-üzədir, reallıqla barışmaq yüklü əvvəlki açıqlamaları satqınlıq kimi qiymətləndirilir. Vardanyan və onun kimilər daha yaxşı erməni lider axtarışına çıxırlar. Elə bir lider ki, Azərbaycanın qarşısında dayanacaq, Qarabağı güzəştə getməyəcək, İkinci Qarabağ müharibəsindən sonra bölgədə yaranmış reallıqlara meydan oxuyacaq...

***

Bəli, Vardanyanın "Telegram manifesti"nin arxasında dayanan sadaladığımız amillərdir. İrəvan meriyasına seçki, sanki daha azğın ermənini müəyyənləşdirmək marafonudur. Ermənistanı keçmişə aparan bu baxış ölkənin varlığını Qarabağ məsələsinə bağlı saxlayır. Bu yanaşmada unutqanlıq da var, 44 günlük müharibədə Qarabağın və digər torpaqlarımızın çöllərinə səpələnmiş erməni leşlərini görməzdən gəlmək də. Nəhayət, Qarabağ amilini Ermənistan dövlətinin müasir təşəkkül düsturu kimi təsəvvürə gətirən bu düşüncə həmin amilin dövləti uçuruma, tamamilə məhvə apardığını hesablamayacaq qədər iflicdir.

Bu gün Vardanyan və onun arxasında dayanan qüvvələr Paşinyan iqtidarını devirməklə, Ermənistanın yenidən Rusiyanın orbitinə qaytarmaq niyyətindədirlər. Bunu edirlər ki, İrəvan Qarabağdan, necə deyərlər, ikiəlli yapışmaq imkanı qazansın. Ancaq Azərbaycan Prezidenti İlham Əliyevin təbirincə desək, "dəmir yumruğ"un yerində olduğunu unudurlar. Unudurlar ki, üçüncü müharibə başlasa, bu dəfə Ermənistanı Azərbaycanın əlindən alacaq heç bir qüvvə olmayacaq.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

---

# "Qardian"ın "erməni sevgisi"nin arxasında nə dayanır?

**(əvvəli 1-ci səhifədə)**

L.Hardinq oxucularda təəssüf hissi yatarmaq məqsədilə Xankəndidə natural təsərrüfat sisteminin "yarandığına" eyham vurur. Yazır ki, reportajın qəhrəmanının bağında meyvə ağacları var və H.Asmaryan meyvələrini qonşuya verib, onun əvəzində yerkökü alır. "Asmaryan Cənubi Qafqazda, Azərbaycanın anklavı olan Dağlıq Qarabağda yaşayır. Orada 120 minə yaxın etnik erməni yaşayır. Əsas ərzaq məhsulları, dərmanlar və yanacağın çatdırılması Ermənistanın paytaxtı İrəvandan dağlıq və mənzərəli Laçın dəhlizi ilə gətirilən yük maşınları ilə həyata keçirilirdi". "Qardian" əziyyət çəkib araşdırmır ki, Qarabağda o qədər erməni yaşamır və separatçıların, eləcə də onlara züy tutanların tutuquşu kimi təkrarladıqları 120 min rəqəmindən yapışıb cümləsinə pərçimləyib. Axı qərəzə yol verməmək üçün qəzet Azərbaycanın da mövqeyini dərc etməliydi. Amma yox, qərəzdən rəngi saralan qəzet "blokada şəraitində acından günorta oyanan yazıq ermənilərin iztirablarına yer verməyi daha məqsədəuyğun hesab edir.

Yalan və miflərin, eləcə də Azərbaycana nifrət ideyaların qoynunda böyüyən bir-iki erməninin fikirlərinə yer ayıran müəllif belə nəticəyə gəlib ki, "Dağlıq Qarabağ hazırda kəskin qıtlıq yaşayır. Yemək azdır. Beynəlxalq Qızıl Xaç Komitəsinin məlumatına görə, zəruri dərmanlar, gigiyena məhsulları və körpə yeməkləri də çatışmır. Supermarketlər boşdur. Yanacaq çatışmazlığı səbəbindən ictimai avtobusların fəaliyyəti dayanıb. Şəhərin pik saatı artıq mövcud deyil. Bir çox rayonlar su və işıqsız qalıb". Burada yazmaya bilmirsən ki, "Qardian" sırtıqcasına yalan yazır. Sosial şəbəkələr "blokadadakı" ermənilərin aclıqdan əziyyət çəkmədiklərini təsdiqləyən foto-video- materiallarla doludur. Jurnalist qışqıran faktların yox, informasiyaya məkanında ayaq açıb gəzən erməni yalanlarının ətəyindən yapışır.



"Sakinlər deyirlər ki, Bakının planı bəllidir: onları acından təslim etmək, yol açılsa, oranı tərk etmək. Deyirlər ki, aclıq klassik silah kimi istifadə edilən asta hərəkətli soyqırımıdır. Azərbaycan hər hansı blokadanın olduğunu inkar edir və ekoloji pozuntulardan sonra hərəkətə keçməyə məcbur olduğunu deyir. Onun vəkilləri Ermənistanın iddialarını əsassız və qeyri-dəqiq hesab edirlər". Bu sətirləri oxuyanda bir daha inanırsan ki, burada təkcə adi erməni təbliğatının təsiri yoxdur. Materialda həm də Azərbaycanı ləkəmək istəyi də hiss olunur. Səhifələrində belə yalanlara yer ayıran "Qardian" da digər Qərb KİV-i kimi, ermənilərin yalan ruporuna çevrilməklə yanaşı, doğrunun yox, yalanın tərəfində dayandığını təsdiqləyir.

Müəllif reportajında separatçıları geosiyasətin "qurbanları" kimi qələmə verməyə çalışıb. Erməni Hoviq Asmaryandan belə sitat gətirir: "Bizim qızılımız yoxdur. Neftimiz və qazımız da. Bizdə nə Qərbi, nə də Şərqi maraqlandıran nəsə var". Yəni, bu "yazıq" insanları rahat buraxın, onlar, sadəcə, evlərində rahat yaşamaq istəyirlər. Doğrudur, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə neft-qaz yoxdur, amma uzun illərdir regionu zəhərləyən və ancaq 2020-ci il 8 noyabrda qəfəsə salınan erməni separatçılığı var. "Qardian" kimi qəzetlər də belə uydurma "aclıq və humanitar faciələri" qələmə almaqla boğulan erməni separatçılığına nəfəs verməyə çalışır. Amma əbəs yerə çalışırlar. Azərbaycanın səsi haqq səsidir, qalanları təfərrüatdır. Ermənilərə və havadarlarına postmüharibə dövrünün reallıqlarını qəbul etməkdən başqa yolları yoxdur.

***S.ELAY,***
***"Xalq qəzeti"***

# Qafqazdan Mərkəzi Asiyaya möhtəşəm dostluq körpüsü

## Bu yol Azərbaycan və Özbəkistanı "Sovet müttəfiqliyi"ndən Türk birliyinə qovuşdurub

**Azərbaycan və özbək xalqları arasında dostluq və qardaşlıq münasibətləri çoxəsrlik tarixə malikdir. Keçmiş sovetlər birliyinin tərkibində müttəfiq respublikalar olan Azərbaycan və Özbəkistan tarixi müstəqilliklərinə qovuşduqdan sonra ikitərəfli əlaqələr dostluq, qardaşlıq və strateji müttəfiqlik müstəvisində inkişaf etməyə başlayıb. Xatırladaq ki, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında diplomatik münasibətlərin əsası 28 il əvvəl qoyulub.**



Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq Azərbaycan Prezidenti Heydər Əliyev və Özbəkistan lideri İslam Kərimovun qarşlıqlı səfərləri münasibətlərin inkişafına xüsusi təkan verib. Hazırda Azərbaycan keçmiş sovet müttəfiqi və indiki strateji tərəfdaşı olan dost və qardaş Özbəkistanla qarşılıqlı fəaliyyətdə, eləcə də bir sıra beynəlxalq platformalarda uğurla əməkdaşlıq edir. Məhz bunun nəticəsidir ki, indi ölkələrimiz arasında münasibətlər özünün ən yüksək inkişaf səviyyəsinə gəlib çatıb. Son illər isə Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qarşılıqlı səfərləri ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə yeni bir dinamizm gətirib. Həmin səfərlər çərçivəsində dövlət başçılarının dostluq və qarşılıqlı etimad şəraitində keçən görüşləri ölkələrimiz arasında ikitərəfli əlaqələrin, o cümlədən iqtisadi münasibətlərin inkişafı, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat və energetika sahələrində əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanlar yaradıb.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ikitərəfli əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiyanın fəaliyyəti ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafına böyük töhfə verir. Yeri gəlmişkən, 2022-ci ildə Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin həcmi 183 milyon 308 min dollar təşkil edib. Bu, mövcud reallığı əks etdirməsə də, yaxın illərdə idxal-ixrac əməliyyatlarının artması şəksizdir.

Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyən Özbəkistan dəfələrlə beynəlxalq təşkilatlar, ikitərəfli və çoxtərəfli görüşlər çərçivəsində dövlətimizin ərazi bütövlüyü ilə bağlı mövqeyini qətiyyətlə müdafiə edib. Sevindirici haldır ki, bu gün qardaş Özbəkistan işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən quruculuq işlərində fəal iştirak edir. Bu baxımdan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin bilavasitə təşəbbüsü ilə Füzuli rayonunda bu ölkənin vəsaiti hesabına inşa olunmuş məktəb qardaş özbək xalqının hədiyyəsi kimi dəyərləndirilə bilər.

Avqustun 22-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana səfəri isə ölkələrimiz arasındakı münasibətlərin daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xatırladaq ki, səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək və geniş tərkibdə görüşü keçirilib. Hər iki görüş zamanı iki ölkə arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsi istiqamətində əldə olunmuş nailiyyətlər ətraflı təhlil edilib, eləcə də bütün sahələrdə–beynəlxalq platformalarda birgə fəaliyyətdən, beynəlxalq təşkilatlarda üzvlük çərçivəsində qarşılıqlı fəaliyyətin möhkəmlənməsindən başlayaraq, energetika, nəqliyyat, qarşılıqlı iqtisadi fəaliyyət və digər məsələlərədək münasibətlərin gələcək inkişaf yolları müzakirə edilib.

Son vaxtlar Azərbaycanla Özbəkistan arasında dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını vurğulayan Prezident İlham Əliyev ötən müddətdə bir çox istiqamətlər üzrə ikitərəfli əməkdaşlıq üçün ciddi baza yaradıldığını bildirib. Dövlətimizin başçısı ötən ay keçirilmiş hökumətlərarası komissiyanın iclasının, xüsusən də iki ölkə rəhbəri arasında təmasların, Azərbaycanda, Özbəkistanda və digər yerlərdə keçirilən mütəmadi görüşlərin, həmçinin dövlət strukturları nümayəndələrinin sıx qarşılıqlı fəaliyyətinin əlaqələrin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Prezident İlham Əliyev beynəlxalq platformalarda, eləcə də energetika, nəqliyyat sahələri üzrə və bütövlükdə iqtisadi qarşılıqlı fəaliyyətdə indiyədək görülmüş işləri yüksək dəyərləndirib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə son 3-4 il ərzində Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə ölkələrimiz arasında münasibətlərin həm qarşılıqlı fəaliyyətdə, həm də beynəlxalq müstəvidə yüksək səviyyəyə çatdırıldığını bildirib. Özbəkistanın dövlət başçısı Azərbaycanla strateji tərəfdaşlığın dərinləşdirilmiş vektorunun öz real bəhrələrini verdiyini vurğulayaraq bunun xalqlarımız tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan və Özbəkistan siyasi, iqtisadi, ticarət, sənaye, avtomobil istehsalı, metallurgiya, əczaçılıq, daşımalar və digər sahələrdə uğurla əməkdaşlıq edirlər.

Xatırladaq ki, prezidentlərin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycanla Özbəkistan arasında bir sıra mühüm sənədlər imzalanıb. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin imzaladıqları "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Müqavilə" xüsusi qeyd edilməlidir. Bundan əlavə, iki ölkənin hökumət nümayəndələri qarşılıqlı münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edən bir sıra mühüm sənədlərə imza atıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin mətbuata bəyanatlarla çıxışları zamanı səsləndirdikləri fikirlər isə ölkələrimiz arasında münasibətlərin dostluq və qarşılıqlı etimada əsaslandığını bir daha təsdiqləyib. Prezident İlham Əliyev Bakıda Ali Dövlətlərarası Şuranın yaradılması barədə müqavilənin imzalanmasını ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin və qardaşlıq münasibətlərinin göstəricisi kimi dəyərləndirib. Dövlətimizin başçısı ötən ay Şuşada keçirilmiş Hökumətlərarası Komissiyanın növbəti iclasında qarşılıqlı əlaqə məsələlərinin bütün spektrinin ətraflı şəkildə təhlil edildiyini xatırladaraq enerji və nəqliyyat-logistika sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırıb.

Azərbaycan və Özbəkistan ictimaiyyətinin bugünkü danışıqların bəhrəsini yaxın vaxtlarda görəcəyini vurğulayan Prezident İlham Əliyev bir müddət əvvəl 500 milyon dollar nizamnamə kapitalı ilə yaradılan Birgə İnvestisiya Fondunun bu məbləği çox sürətlə sərf edəcəyini və onun artırılmasına zərurət yaranacağına əminliyini ifadə edib.

Prezident Şavkat Mirziyoyev isə mətbuata bəyanatında Azərbaycanın Özbəkistan üçün münasibətlərin tamamilə yeni mərhələyə yüksəldiyi ən yaxın ölkələrdən biri olduğunu vurğulayaraq iki yaxın xalq, iki yaxın ölkə olaraq şəxsi münasibətlərin əlaqələri tamamilə yeni mərhələyə yüksəltdiyini diqqətə çatdırıb. Özbəkistanda Azərbaycanın beynəlxalq arenada nüfuzunu, ümumilikdə, son illər ərzində bütün sahələrdə uğurlarının izlənildiyini və bununla qürur duyulduğunu diqqətə çatdıran Şavkat Mirziyoyev münasibətlərin fərqli səviyyəsini, sənayenin lokallaşdırılmasının, nəqliyyat logistikasının müxtəlif səviyyələrini təmin etmək üçün ortada çox ciddi layihələrin olduğunu bildirib. Özbəkistan iqtisadiyyatında nəqliyyat sahəsinin çox ciddi komponent olduğunu söyləyən dövlət başçısı inkişaf istiqamətini ən yaxın ölkə olan Azərbaycanla müəyyən etdiklərini yeganə düzgün qərar kimi dəyərləndirib. Prezident Şavkat Mirziyoyev daha sonra bildirib ki, razılaşdırılan bütün məsələlər yerinə yetirilsə, həm Özbəkistan, həm də Azərbaycan iqtisadiyyatları üçün uğurlu olacaq.

Özbəkistan Prezidenti, həmçinin Ali Dövlətlərarası Şurasını ən yüksək etimad səviyyəsi və razılığa gəlinən həmin strateji istiqamətlərin ən yüksək səviyyədə davamı kimi dəyərləndirərək müəyyən vaxtdan sonra ölkələrimizin bütün istiqamətlərdə keyfiyyətcə tamamilə yeni səviyyəyə çıxacaqlarına əminliyini bildirib.

***M. YAQUBZADƏ, "Xalq qəzeti"***

# Qarabağdan erməni köçü

## *Son 3 gündə 200-dən çox erməniəsilli sakin Laçın yolu ilə Ermənistana gedib*

**(əvvəli 1-ci səhifədə)**

Ümumilikdə, son üç gün ərzində 200-dən çox şəxs "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsindən keçməklə Qarabağdan Ermənistana doğru hərəkət edib. Ölkəmizi tərk edənlər arasında Rusiya vətəndaşları da var. Azərbaycan televiziyalarının avqustun 23-də ərazidə apardığı çəkiliş zamanı Azərbaycan sərhədçiləri sərhədi keçən erməni qadından harada qeydiyyatda olduğunu soruşublar. O, Moskvada qeydiyyatda olduğunu bildirib.

Qeyd edək ki, buraxılış məntəqəsində sadələşdirilmiş sərhəd keçid proseduru tətbiq olunur. Erməni əsilli şəxslər sənədlərini təqdim edir, Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları yoxlayır, sonra isə onlar Ermənistana doğru hərəkət edirlər. Beləliklə, erməni əsilli şəxslər qalmaq və ya getməklə bağlı seçimlərini özləri etmiş olurlar. Bundan sonra onlar istədikləri yerdə yaşamaqda sərbəstdirlər. Qarabağda qalmağın şərti isə məlumdur. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, ərazimizdə yaşamaq istəyən şəxslər ölkənin qanunlarına hörmətlə yanaşmalı, dövlətçilik əleyhinə fəaliyyət göstərməməlidirlər.

Keçid edən şəxslər arasında etnik separatizmi dəstəkləyən şəxslər də var. Onlar Qarabağda öz planlarını həyata keçirməyə çalışırdılar. Müxtəlif mənbələr bölgədə 5 minə yaxın Rusiya vətəndaşının olduğunu iddia edir. Onların tez bir zamanda ərazini tərk edəcəkləri istisna olunmur. Bu şəxslərin əli ilə Qarabağda Dnestryanı modelinin təkrarlanmasına çalışılırdı. Lakin bu, alınmadı. Onlar Azərbaycanda separatçılığın heç bir nəticə vermədiyini görərək, ərazimizi tərk etmək qərarına gəliblər. Özləri Azərbaycan ərazisini tərk etməklə bağlı Rusiya sülhməramlılarına könüllü qaydada müraciət ediblər.

Qarabağdan ermənilərin köçü Ermənistan mediasının da yer ayırdığı məsələlərdəndir. Xankəndidən olan və adının açıqlanmasını istəməyən qadın hamının oradan getməyə çalışdığını deyib. Qarabağ ermənilərinin hansı əhval-ruhiyyədə olmaları barədə hazırlanan materialda həmin qadın təkcə "ərzaq növbələri"ndən deyil, əhalinin ovqatından da danışıb. Erməni qadın deyib: "Son günlər baş verən hadisələr insanlarda ümidsizliyə səbəb olub. Heç kim başa düşmür. Bəziləri iş yerini tərk edir, bəziləri yox. Hər gün yeni müdafiəçilərimiz peyda olur, amma, əslində, heç kim heç kimi müdafiə etmir. Nə olsa gedəcəklər, amma biz qalacağıq. İndi bütün insanlar getməyə çalışırlar. Çoxları getdi və belə davam edərsə, daha çox şəxs gedəcək".

Bu arada Ermənistanın "Hraparak" qəzeti "Qarabağda təlatümlü daxili siyasi atmosfer mövcuddur" sərlövhəli yazı dərc edib. Yazıda bildirilib ki, bölgədə narahat daxili siyasi ab-hava hökm sürür: "Biz bugünlərdə Arayik Arutyunyanın "istefa" vermək niyyəti barədə yazmışdıq. Ötən həftənin əvvəlində keçirilən qapalı görüşdə tanınmış şəxslər, keçmiş başçılar buna mane olublar. Bazar günü Ruben Vardanyan, əslində, bu informasiyanı təsdiqləyib. Bununla belə, "istefa" mövzusunun bağlanmadığı barədə məlumat var: Arayik Arutyunyanın dostu Karen Matevosyanın başçılıq etdiyi özünü könüllü adlandıran bir qrup "parlament"ə soxularaq "spiker" David İşxanyanla haqq-hesab çəkməyə çalışıb".



"Hraparak" yazıb ki, "istefa"dan xəbər tutan Matevosyan avqustun 17-də separatçı rejimin başçısı ilə görüşüb. O, məlumatı təsdiqləyib, deyib ki, yanında heç kim yoxdur, hamı onu günahlandırır, buna görə də "istefa" vermək qərarına gəlib. Belə olan təqdirdə Matevosyan bir qrup könüllü ilə birlikdə Arutyunyanı qorumaq və "deputatlar"ı, "parlament rəhbərliyi"ni onu dəstəkləməyə çağırmaq üçün "parlament"ə tələsib.

Bundan bir neçə gün sonra isə özünü könüllülərin rəhbəri adlandıran Matevosyan canlı efirə çıxaraq qarabağlılara deyib ki, o, öz "könüllüləri" ilə "dövlətin idarə olunmasının təşkili" və "parlament seçkilərinin keçirilməsi" məsuliyyətini öz üzərinə götürür. Üstəlik, o, Qarabağdakı vəziyyətə görə hamını, o cümlədən keçmiş başçıları günahlandırıb və az qala, hədələyib ki, əgər razılığa gəlməsələr, onlarla "məşğul" olacaq.

Qəzet yazır: "Qarabağdakı mənbələrimiz Matevosyanın Ermənistandan göndərildiyinə şübhə etmirlər. Hazırda Qarabağda müşahidə olunan xaos və anarxiya Paşinyanı qane edir və Matevosyan fors-major şəraitdə "hakimiyyəti" heç olmasa, Samvel Babayana ötürmək üçün aktivləşdirilib. Mənbəmiz bildirir ki, Matevosyan və Babayan yaxın dostdur və "blokada" zamanı Babayanın Qarabağa daxil olmasını məhz Matevosyan təşkil edib".

Yeri gəlmişkən, K.Matevosyanın canlı yayımda səsləndirdiyi fikirlərlə bağlı Azərbaycanın Baş Prokurorluğu açıqlama yayıb. Açıqlamada deyilir ki, ölkəmizin Xankəndi şəhərində yaşayan və özünü Karen Matevosyan kimi təqdim edən hərbi geyimdə olan şəxsin avqustun 21-də "Telegram" və digər internet informasiya resurslarında rus dilində yayımlanmış videomüraciəti üzrə Baş Prokurorluğun İstintaq İdarəsində araşdırma aparılıb.

Araşdırma zamanı qeyd olunan şəxsin videomüraciətində ölkəmizin ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsində yaşayan erməni əsilli şəxslərə səslənərək, həmin ərazini qanunsuz olaraq dövlət təsisatları olan müstəqil "Artsax respublikası" adlandırması, ərazimizdə Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan və Azərbaycan Silahlı Qüvvələrinin tərkibində mövcud olmayan "yerli özünümüdafiə qüvvələri" adlı qanunsuz yaratdığı silahlı birləşmənin komandiri olduğunu açıq şəkildə bəyan etməsi, azərbaycanlıları düşmən adlandırmaqla Azərbaycan xalqına qarşı nifrət məzmunlu çıxışları, Xankəndi və ətraf yaşayış məntəqələrində yaşayan erməni əsilli şəxsləri qorxmamağa və xalq kimi birləşib azərbaycanlılara qarşı mübarizə aparmağa çağıraraq xalqımızın milli ləyaqətini alçaltmağa yönələn fikirlər səsləndirməsi, habelə milli nifrət və düşmənçiliyə yönələn hərəkətlər müəyyən edilib.

Qeyd olunanlara əsasən, Baş Prokurorluq tərəfindən fakta görə Cinayət Məcəlləsinin 279.1 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma) və 283.1-ci (milli nifrət və düşmənçiliyin salınması) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri həyata keçirilir.

Panorama.am saytının dünən yaydığı məlumatda isə bildirilib ki, A.Arutyunyan avqustun 22-23-də bağlı qapı arxasında müxtəlif "dövlət, siyasi və ictimai dairələrlə" danışıqlar aparıb. Onun "mətbuat katibi" Lusine Avanesyan "Artsaxpress"ə bildirib ki, söhbətlər zamanı "blokada" nəticəsində yaranan "humanitar və təhlükəsizlik problemləri", separatçı rejimin hərəkətləri və vəziyyəti nizamlamaq üçün müxtəlif mərkəzlərdən daxil olan vasitəçilik təklifləri müzakirə edilib. "Hələlik qərar verilməyib, lakin müzakirələr davam edir. Yaxın vaxtlarda Arayik Arutyunyan vəziyyət və onun yanaşması barədə informasiyanı şəxsən ictimailəşdirəcək", – deyə Avanesyan bildirib.

Göründüyü kimi, Qarabağ separatçıları ciddi çaxnaşma içindədirlər. Bir tərəfdən, əhali bölgəni tərk edir, digər tərəfdən, rejimin onları saxlamaq istiqamətində səyləri nəticə vermir. Üstəlik, baş verən uğursuzluqlara görə, rejim daxilində müxtəlif siyasi qüvvələr bir-birini ittiham etməkdədirlər. Onlar indi Arutyunyanı baş verənlərdə təqsirli bilirlər. Ancaq unudurlar ki, onun yerinə kimin gəlməsindən asılı olmayaraq, əvvəlki siyasətin davam edəcəyi təqdirdə heç bir nəticə əldə etmək mümkün olmayacaq. Necə deyərlər, toplananların yeri dəyişdikdə cəm dəyişmir. Qarabağ separatçıları daşı ətəklərindən tökərək Azərbaycanın tələblərini qəbul etməlidirlər. Bunlar çox sadə və beynəlxalq hüquqa uyğun tələblərdir. Qanunsuz hərbi birləşmələr tərksilah edilməli, Ağdam–Xankəndi yolu açılmalı, Xankəndidə və separatçı rejimin nəzarət etdiyi digər ərazilərdə Azərbaycanın Dövlət bayraqları ucaldılmalı, bölgədə suverenliyimiz tam bərqərar edilməlidir. Qarabağ erməniləri isə Azərbaycan pasportu alaraq öz evlərində yaşayışlarına davam edə bilərlər. Bunu istəməyənlərin ərazimizdə uzun müddət qalması mümkün olmayacaq.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

### Ekspert rəyi

**Rizvan HÜSEYNOV, hərbi-siyasi şərhçi**



– Qarabağ ermənilərindən kim Azərbaycan qanunları ilə yaşamaq istəmirsə, özünü ölkənin digər vətəndaşlarından üstün görürsə, eyni zamanda, cinayət törətməyibsə, çıxıb gedə bilər. Bu yanaşma beynəlxalq normalara uyğundur. Ölkəmiz dövlət suverenliyini bərpa etmək istiqamətində işləri tələsmədən, təmkinlə həyata keçirir. Bu prosesdə dönüş nöqtəsi Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması oldu. Aprel ayında biz Azərbaycan–Ermənistan şərti sərhədinin Laçın istiqamətində sərhəd nəzarət-buraxılış məntəqəsini quraraq öz ərazi bütövlüyümüzü tam bərpa etdik. Bununla da separatizmin kitabı bağlandı. Azərbaycan şərtlərini irəli sürüb. Əgər onlar Azərbaycan vətəndaşlığını, bayrağını, himnini, Konstitusiyasını, milli valyutasını qəbul etsələr, orada yaşaya bilərlər. Lakin bunları qəbul etməyən ermənilər Qarabağda yaşaya bilməz və çıxıb getməlidirlər.

Azərbaycan hələ ki, səbr nümayiş etdirir. Halbuki, Prezident İlham Əliyevin Laçın şəhərinə qayıdan əhali ilə görüş zamanı dediyi kimi, hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə də "parlament" buraxılmalı, özünü "prezident" adlandıran ünsür təslim olmalı, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər. Son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən artıq heç kim söhbət açmır. Qarabağ ermənilərinin köçü onların artıq reallıqla barışdıqlarından xəbər verir.

# On yeddi yaşlı Elen “real təhlükə” mənbəyidir

## Yeniyetmə qız bir cümləsi ilə qondarma rejimin yuxusunu necə ərşə çəkdi?

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlər Laçın yolundan qorxu-hürküsüz, rahat formada, son günlər isə kütləvi şəkildə istifadə etməyə başlayıblar. Bu zaman onlar yolun üstündəki Həkəri sərhəd postundakı pasport-gömrük nəzarətindən keçərkən öz razılıqlarını bildirməkdən də çəkinmirlər. Yazılı və elektron media özündə bu səhnələri əks etdirən foto–videogörüntülərlə doludur. Qarabağın erməni sakinləri onlara yaxınlaşan jurnalistlərin suallarını cavablandırmaqdan, sərhəd postunda gördükləri barədə fikirlərini bölüşməkdən çəkinmirlər. Düşünə bilərsiniz ki, burada qeyri-adi nə var? Amma var imiş. Belə açıqlamalar bəzi qüvvələr üçün qeyri-adidən daha böyük, ciddi “əhəmiyyət kəsb edən”, hər cür saxtakarlıqla apardıqları ideoloji müharibələrə qarşı “kompromat” xarakterli təhlükə mənbəyidir.

### Narahatlığın əsl səbəbi

Qarabağdan Ermənistan tərəfə keçən 17 yaşlı tələbə Elen Arustamyanın telekanala söylədikləri də, ilk baxışda normal, siyasətdən uzaq bir açıqlama idi. Gənc qız, sadəcə, sərhəd məntəqəmizdə şahidi olduğu vəziyyəti dilə gətirərək burada yaradılan şəraitdən razılığını ifadə edib, hər şeyin qaydasında olduğunu deyib. O, azərbaycanlıların göstərdiyi münasibətin normal olduğunu da bildirib. Yəni, Elen özü, kənardan heç bir “öyrədilmə” olmadan həqiqəti söyləyib. İntəhası, onun ağlına da gəlməzdi ki, bu açıqlaması ilə Xankəndidəki separatçı rejimin “blokada”, “etnik təmizləmə”, “karvan şousu” kimi dezinformasiyalarını, yerli və beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı siyasi avantürasını göydən yerə çırpıb. Birinci kurs tələbəsi heç düşünməzdi ki, o, şahidi olduğu faktı, real mənzərəni dilə gətirməklə “blokada” təbliğatına, “soyqırımı” yalanına sarsıdıcı zərbə vura bilər. Elen, yəqin ki, bu hərəkəti ilə həm də Qarabağda yaşayan həmyerlilərində Azərbaycan cəmiyyətinə reinteqrasiya meyillərinin cücərməyə başlamasına işarə vurduğunu da ağlının ucundan belə keçirməyib.

Xankəndidəki separatçı-kriminal ünsürlərin Laçın postunda baş verən “insidentdən” bərk narahat olduqları uzaqdan duyulur. Təkcə “Şeytan yuvasına” çevirdikləri Xankəndidə deyil, Hayastanın özündə də bomba effekti vermiş bu olay incə bir mətləbin də üzərindən boz pərdəni götürmüş oldu. Bu gün bir nəfərin, sabah on, o birisigün yüz nəfərin etiraf



edəcəyi həqiqət Qarabağımızdakı həmin xunta rejiminin sonunu yaxınlaşdıracaq.

### Kəmsavad “ombudsman” çağırış edib

İrəvanda təhsil alacaq 17 yaşlı erməni tələbə qıza qarşı qarayaxma, mənəvi zəhərləmə, psixoloji təzyiq kampaniyası başlayıb. Bu kampaniyaya “dqr rəsmisindən” maraqlı reaksiya gəlib.

“Psixoloji toxunulmazlığına, 17 yaşlı uşağın şərəf və ləyaqətinə qeyri-qanunu müdaxilə ilə lentə aldığı video-görüntünü sosial şəbəkədə yayan Azərbaycanın çirkli təbliğat maşınının növbəti alçaq addımı” kimi qələmə verən, “dqr”-in ombudsmanı” Qegam Stepanyan paylaşım edib. “Armenpress” Xankəndidəki separatçı rejimin “rəsmisinin” dilindən yazır ki, Azərbaycan tərəfinin mediamərkanda yaydığı bu informasiya “özünün Laçın dəhlizi (?) ilə sərbəst hərəkətin təmin edilməsi barədə yalan bəyanatlarına haqq qazandırmaq üçün əvvəlcədən hazırlanmış və həyata keçirilmiş plandır”.

Elenə canıyananlıq göstərən “ombudsman” həmin videomaterialı yaymaqdan çəkinməyə və 17 yaşlı qızın ünvanına yersiz hücumlara və təhqirlərə son qoymağa çağırıb. Yəni, o videosüjetə baxan Elen yaşındakı erməni gəncləri birdən özlərinə sual verə bilərlər ki, “blokada hansı yoldadır? Biz axı onu görmədik”. Sonra da o gənclər gözlərinin qarşısına BMT Təhlükəsizlik Şurasında Hayastan hakimiyyətinin sonuncu və rəzil məğlubiyyətini gətirsinlər və bu barədə yaxşı-yaxşı düşünsünlər. Beynəlxaq qurumun öz nizamnaməsini, üzvü olan Azərbaycanın sərhəd toxunulmazlığını əsas götürərək, erməni saxtakarlığına inanmadığına, suverenliyimizə sayğısızlıq göstərmədiyinə əmin olsunlar. Ondan sonra qərar verməyi, fikrində və mövqeyində düzgün seçim etməyi cavanların öz öhdəsinə buraxırıq...

Utanmadan, çəkinmədən hələ də Laçın yolundakı sərhəd postumuzu “qeyri-qanuni” adlandırmalarına, Vaqif Xaşatryan olayına baxmayaraq, son günlər daha çox Qarabağ ermənisi bu yoldan istifadə edir. Verilən məlumatlara görə, təkcə bir gün ərzində Həkəri nəzarət-buraxılış məntəqəsindən Gorus istiqamətinə 60-a yaxın erməni sərbəst keçid edib. Həm də tam sərbəst və rahat şəkildə.

### Elenlərin sayı gündən-günə çoxalacaq

Qarabağda, Laçın yolunda Bakıdan asılı olmayan proses başlanıb. Bu prosesə “köç” də demək olar. Artıq neçə gündür Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) əməkdaşlarının müşayiəti ilə Qarabağdan Ermənistan istiqamətinə 9 avtomobildən ibarət karvan buraxılıb. Həmin maşınların içərisində BQXK-nın üzvləri, sürücülər, müşayiətçilər, tibb işçisi və xəstələrdən ibarət, ümumilikdə, 57 şəxsin maneəsiz hərəkətinə şərait yaradılıb. Onların ardınca bir qrup tələbə Ermənistana keçmək üçün Həkəri körpüsündəki sərhəd nəzarət-buraxılış məntəqəsinə gəlib. Bu zaman Azərbaycan tekekanalının müxbiri Elen Arustamyan soyadlı tələbədən soruşub: “Sərhədi təhlükəsiz və maneəsiz keçdiniz? Razısınızmı?” Elen suala müsbət cavab verir və əlavə edir ki, hər şey normaldır. Video “Facebook”un erməni seqmentində paylaşılandan sonra 17 yaşlı qız hayların hədəfinə çevrilib, sosial şəbəkədə ona qarşı təhqiramiz və alçaldıcı ifadələr baş alıb gedir. Qarabağdan Ermənistana təhsil almağa gedən 17 yaşlı Elen Arustamyana qarşı saysız-hesabsız təhqirlər, nalayiq söyüşlər, hədələr, son dərəcə dözülməz şərhlər dayanmaq bilmədən davam edir.

### Həqiqətdən qaçanların “hörümçək toru”

Polyak rejissoru Yeji Qofmanın 1982-ci ildə lentə aldığı “Loğman” («Знахарь») melodramı çox maraqlı süjet xəttinə malikdir. Ölümcül döyülərək qarət olunan, bu səbəbdən yaddaşını itirən, “itkin düşmüş” sayılan məşhur cərrah-professor Vilçurun Marısya adında qızı vardı. Atasız böyüyən Marısya təhsilini başa vurub paytaxt Varşavadan üz tutduğu yad əyalətdə mağazada satıcı işləməklə başını dolandırır. Bu kənddə hamı cəmiyyətin və təbiətin ədalət və paklıq qanunlarının əksinə yaşayır. Kişiləri əyyaş, qadınları pozğun olan bir mühitdə Marısya saflığın və təmizliyin rəmzidir. Qara qarğaların içində ağ qarğa kimi yaşamaq çətin və dözülməz



olduğu kimi, Marısyanı da bu çirkaba bulaşmaq aqibəti gözləyir. Amma o, iradəsi və dürüstlüyü ilə onu izləyən acı taleyinə müqavimət göstərir. Hətta bu yolda “ölümə məhkum” edilsə belə, inadından dönmür, inandığı həqiqətə tapınır. Və sonda qələbə çalır.

17 yaşlı Elen də gördüyü və əmin olduğu həqiqəti dilinə gətirib. Amma o, bununla həm də daşnak-separatçı-revanşist çetenin cinayət əməllərinin üzərindən yalan pərdəsini götürmüş oldu. İndi həmin quldur dəstəsinin və onların beyinlərini yuduğu kütlənin qınaq obyektinə çevrilən, sosial şəbəkədə iyrənc təhqirlərə, əxlaqsız söyüşlərə məruz qalan Elenin hansı hissləri keçirdiyini təsəvvür etmək çətin deyil. Qorxma, həqiqətin yanında dur, Elen! İnan, bu gün dediyin həqiqət çətin anlarında da, bütün həyatın boyunca da sənin yardımçın olacaq.

Yalanın, riyakarlığın deyil, həqiqətin yanında səf duracaq Elenlərin sayının artacağına əminik. Onlar çoxaldıqca xəstə hay çetesinin dairəsi qapanacaq və hörümçək kimi özlərinə toxuduqları xəyanət torunun içində məhv olacaqlar.

**P.S.** Dünən Xankəndi–Gorus istiqamətində Laçın nəzarət-buraxılış məntəqəsindən keçən yaşlı erməni postda sərbəst keçidin təmin olunmasından razılıq edib. O, bu barədə azərbaycanlı media mənsublarına açıqlamasında deyib. Jurnalistlərin “Necə keçdiniz, sizə hansısa maneə yaradıldımı?” – sualına Qarabağ ermənisi Azərbaycan dilində “qəşəng” cavabını verib. İndi doğrunu söyləyən bu ağsaqqalı bir kəlmə sözünə görə İrəvanda yüngülsaqqalmı edəcəklər?!

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

# Paşinyanın “müstəqillik manifesti”

## yaxud tarixi səhvlərin gecikmiş etirafı

**Ermənistan baş naziri Nikol Paşinyanın ölkənin müstəqillik bəyannaməsinin qəbulunun 33 illiyi ilə bağlı yaydığı mətn qalmaqal doğurub. Əvvəlcə bu barədə bir neçə kəlmə ilə söz açaq və bildirək ki, hazırda sözügedən mətn səbəbindən Paşinyan üzərində sanki inkvizisiya məhkəməsi qurulur, yaxud da o, gilyotinlə cəzalandırılır. Nikola ünvanlanan “satqın”, “xain” kimi təhqirlərin ardı-arası kəsilmir. Baş naziri hədəf seçən ənənəvi təhqirlər də öz yerində...**

Beləliklə, Paşinyan bildirib ki, Ermənistan müstəqillik bəyannaməsini Sovet İttifaqından çıxmaq üçün qəbul edib, ancaq sənəd, eyni zamanda, SSRİ-dən uzaqlaşmaq qapılarını bağlayan təbiətə malikdir: “Demək olar ki, biz XX əsrin sonlarına doğru qəbul etdiyimiz müstəqillik bəyannaməsi ilə XX əsrin əvvəllərində müstəqilliyimizi itirməyə aparan formulu dəstəkləmişik”.

Əslində, N.Paşinyan bəlkə özü də fərqinə varmadan çox böyük həqiqətləri açıqlayır. Doğrudan da, Ermənistanın XX əsrdəki istər birinci, istərsə də ikinci müstəqilliyi qonşu dövlətlərlə ziddiyyətlər, ərazi iddiaları fonunda meydana çıxmış hadisədir. Yəqin, Nikol elə bu səbəbdən bildirir ki, birinci müstəqilliyi əldə edərkən buraxılan səhvlər, ikinci müstəqilliyə aparan yolda da təkrarlandı. Paşinyanın fikirlərindən gəlinən nəticə budur ki, Ermənistanı SSRİ-nin tərkib hissəsi edən ritorika işğalçılıq motivlərinə köklənmişdi. Əlbəttə, bu yerdə ölkənin paytaxtı İrəvanın qədim Azərbaycan şəhəri olduğunu və sırf erməni dövlətinin yaranması məqsədilə peşkəş verildiyini xatırlamalıyıq.

Bəli, Ermənistan dövlətçiliyinin itirilməsi təhlükəsinə söykənən Nikol müstəqillik bəyannaməsinin ruhunu yanlış sayır. Çünki o ruhda həm də Qarabağ amili var idi. Qarabağ amili isə Azərbaycanın torpaqlarına qəsd kimi mənfur xassəyə malikdir. Doğrudur, Paşinyan bunu açıqdan-açığa dilə gətirmir, amma o, kifayət qədər ciddi subliminal mesajlar verir.

Məsələn, erməni baş nazir bildirir ki, hazırkı dövlətçiliyin əsasını qoyan bəyannamə 1988-ci ildə Sovet İttifaqında hökm sürən iqtisadi, siyasi və ideoloji böhran şəraitində başlayan Qarabağ hərəkatının zirvəsində qəbul edilib. Yəni, o, faktiki olaraq deyir ki, Qarabağ məsələsi müasir Ermənistan dövlətçiliyinin yaranmasının başlıca preambulasını təşkil edib. Deməli, Qarabağ yoxdursa, Ermənistan dövlətçiliyi də yoxdur. Nikolun söylədiyi və arzuladığı isə budur: Qarabağsız da Ermənistan olsun. Amma ölkədə məsələnin bu formada qoyuluşu ilə razılaşmayan revanşist-şovinist, xəstə kəsim iş başındadır və hazırkı iqtidarın ona münasibətdə acizliyi, hətta həmin kəsimin dili ilə danışdığı da aşkardır. Ancaq onu da bildirməliyik ki, Paşinyan dünənki çağırışı ilə Ermənistanı və erməni xalqını sanki qəflət yuxusundan ayıltmaq istəyir. Onun mesajı təxminən budur: Qarabağdan ayrı da dünya var.

***

Müstəqillik bəyannaməsinə həsr olunmuş mətn müstəvisində Paşinyana qəzəb püsgürtüsünün daha bir səbəbi sözügedən mətndə 2020-ci ilin 44 günlük müharibəsinin yada salınmasıdır. Paşinyan deyib ki, müharibədən əvvəl, xüsusən sonra bəyannamənin mətnini dəfələrlə oxuyub. “Və etiraf etməliyəm ki, müharibədən sonrakı mütaliələrin təəssüratları müharibədən əvvəlki mütaliələrdən bir qədər fərqli idi”, – deyən Nikolun yanaşması nə qədər səmimi ifadə üslubuna malik olsa da, belə münasibət bir siyasət adamına, ən əsası isə ölkənin ali postunu tutan şəxsə yaraşmayan, onu kənardan gülüş obyektinə çevirən tərzdir. Nikolun fikrindən gəlinən nəticə odur ki, İkinci Qarabağ müharibəsi onu ağıllandırıb.

Əslində, Paşinyanın ağıllanması pozitiv cəhətdir. Heç olmasa, bir erməni düz yola gəlib və onun öz ölkəsində söz sahibi olması ikiqat müsbət haldır. Baş nazir müsbət olmayan durumu da açıqlayır. Onun sözlərinə görə,



bəyannamənin mətninin tənqidi təhlili göstərir ki, Ermənistan sonda ölkəni Sovet İttifaqının bir hissəsi edən düstura əsaslanmış diskurs və məzmun seçib: “Bu isə regional mühitlə qarşıdurma diskursudur. Bu diskurs bizi qonşularla daimi münaqişədə saxlayır”.

Qeyd edək ki, Ermənistanın 23 avqust 1991-ci il tarixli müstəqillik bəyannaməsinin hazırlanması barədə qərar Ermənistan SSR Ali Soveti və Dağlıq Qarabağ Milli Şurası adlanmış saxta qurum tərəfindən 1 dekabr 1989-cu ildə verilmişdir. Hazırda məhz ikinci tarixə görə erməni avantürizminin təmsilçiləri Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasının qeyri-qanuniliyini iddia edirlər.

Bəyannamədəki digər məqam isə 1915-ci ildə Osmanlı dövlətində baş verənlərin soyqırımı kimi göstərilməsi və hazırkı Türkiyənin sərhədyanı hissələrinin Qərbi Ermənistan adlandırılmasıdır. Bu, açıq-aşkar ərazi iddiasıdır. Yeri gəlmişkən, son dövrlər Ermənistan daxilindəki müzakirələr Paşinyanın bəyannamədəki həmin müddəaya qarşı da cəbhə açdığını söyləməyə əsas verir. Bu mövzuda diskussiya açanlar isə Nikolun ölkənin milli maraqlarını satdığı qənaətindədirlər.

N.Paşinyan bu nəticəyə gələrək: “indi başqa yolların nə olacağını bilmirik və hara aparacağını dəqiq deyə bilmərik, amma artıq keçilmiş yolu təhlil edib anlamaq bizim tarixi borcumuzdur” – deyir. Erməni baş nazirin baxışı budur ki, o, 2018-ci ildə vəzifəyə gəlməzdən əvvəl və ondan sonra ölkənin müstəqillik bəyannaməsinə “İncil ehkamı”, yəni mütləq, toxunulmaz sənəd kimi yanaşırmış. “Halbuki nə qədər fundamental olsa da, onun dərin təhlilə ehtiyacı var. Çünki bəyannamə sonrakı nəticələri olan siyasi sənəddir”, – deyən baş nazirə bu məqamda da haqq qazandırmaq mümkündür. Çünki, əslində, müasir Ermənistanın üzləşdiyi acınacaqlı durumun kökündə dayanan sənəd elə həmin müstəqillik bəyannaməsidir.

Nəhayət, Paşinyan ölkəsinin istiqlal bəyannaməsinin qəbulunun 33-cü ildönümü münasibəti ilə özünün başçılıq etdiyi hökumətin sülh gündəliyini müstəqilliyin gündəmi olaraq göstərir. Onun sözlərinə görə, regionda sülh yaransa, Ermənistanın müstəqilliyi də daimi olacaq. “Sülh olana qədər isə SSRİ-nin ruhu bizim səmamızda, rayonumuzun səmasında uçacaq”, – deyən Nikolun ölkə əhalisini anti-rus ovqatına köklədiyi də aşkardır.

***

Sonda N.Paşinyan bir qədər pafosa üstünlük verir. O, müstəqilliyi, suverenliyi və demokratiyanı seçdiyini deyir. Ardınca “Ermənistan Respublikasının vətəndaşı müstəqilliyi, suverenliyi, demokratiyanı seçir” də deyə populizmi işə salan Nikola bəzi məqamları xatırlatmağa ehtiyac var:

Birincisi, Paşinyan 44 günlük müharibənin ona, necə deyərlər, dərs olduğunu dilə gətirsə də, səhv səhvdir, xəyanət isə xəyanət. Bəs, Paşinyanın xəyanəti nədədir? O, barəsində söz açarkən ağzını köpükləndirdiyi demokratiyaya xəyanət etmişdir. Çünki demokratiya egidası altında iqtidara yiyələnmiş Nikol nədənsə ali dəyərləri, qonşularla normal münasibətləri seçmədi, öz musiqisini tipik erməni avantürizminin notları üzərində köklədi.

İkincisi, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı, “yeni ərazilər uğrunda yeni müharibə” və sair bu sayaq anarxist şüarlar da Nikol tərəfindən dövriyyəyə buraxıldı. Ermənistana, obrazlı desək, qapıdan yox, bacadan daxil olmuş kövrək demokratiya mehi taybatay açıq qapılardan içəri soxularaq özünə məkan tapmış avantürizm küləyinin yedəyində qaldı. Ölkə və onun ictimai rəyi üçün bugünkü çıxılmaz durum bu aqibətin nəticəsində formalaşıb.

Üçüncüsü, N.Paşinyanın filosofcasına danışmasına ehtiyac yoxdur. O, danışdıqlarını əməli iş müstəvisinə gətirməlidir. Bunun üçün bütün sədləri aşmağı bacarmalıdır. O, bunu edirmi? Xeyr! O qətiyyətlidirmi? Yox! Deməli, indiki halda Nikol da digərləri kimi, ölkənin iflasına gözü ilə görüb müqavimət göstərməyənlərdən, acizlərdən və siyasi qısırlardan biridir.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

# Azərbaycan–Macarıstan: dost ölkələr, strateji tərəfdaşlar

**Azərbaycanın strateji müttəfiqi sayılan Macarıstan ölkəmizin Avropa İttifaqında ən etibarlı tərəfdaşlarından biridir. Hazırda bir çox sahələrdə fəal əməkdaşlıq edən ölkələrimiz qarşılıqlı münasibətlərdə və beynəlxalq təşkilatlar çərçivəsində bir-birini daim dəstəkləyir.**



### Ekspert rəyi

**Təbriz YADİGAROV, ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**



Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı səmərəli iqtisadi münasibətləri sayəsində bu ilin 7 ayında beynəlxalq iqtisadi münasibətlərin 80 faizini təşkil edən xarici ticarət əlaqələri 30 milyard 333 milyon 432 min dollara çatıb. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 274 milyon 522 min dollar çoxdur. Ticarət əlaqələrinin 51 faizi Avropa İttifaqı ölkələrinin payına düşüb.

Azərbaycan beynəlxalq aləmdə nüfuzunu genişləndirərək investisiya cəlbediciliyini artırmaqla yanaşı, Avropa İttifaqı ölkələri ilə beynəlxalq ticarət əlaqələrini qarşılıqlı əməkdaşlıq çərçivəsində daim inkişaf etdirir. Bu baxımdan son illər ölkəmizin Macarıstanla da ticarət əlaqələri getdikcə genişlənir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ilin 7 ayı ərzində Azərbaycandan Macarıstana 1 milyon 556 min 610 dollarlıq mal ixrac olunub ki, bu da əvvəki ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə çoxdur. Həmin dövrdə Macarıstandan idxal olunan malların statistik dəyəri isə 28 milyon 86 min dollar təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 18,3 faiz çoxdur. Ümumilikdə isə, Azərbaycanın Avropa məkanı ilə illik ticarət dövriyyəsinin 0,098 faizi Macarıstanın payına düşüb.

Yeri gəlmişkən, 2023-cü il avqustun 21-də Budapeşt və Bakı arasında imzalanan saziş gələcəkdə Azərbaycan qazının Macarıstana nəqlinin həcminin təqribən 1 milyard kubmetrə çatdırılmasına imkan yaratmaqla yanaşı, ölkələrimiz arasında ticarət əlaqələrinin inkişafında da mühüm rol oynayacaq. Sazişdə də qeyd edildiyi kimi, Macarıstan 2023-cü ilin dördüncü rübündə Azərbaycandan 100 milyon kubmetr qaz almaqla yanaşı, həmçinin anbarlarda 50 milyon kubmetr Azərbaycan qazının saxlanması və siyasi saziş üzrə qaz tədarükünün bir milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

Məlum olduğu kimi, Macarıstanın MVM CEEergy enerji şirkəti ilə Azərbaycanın SOCAR şirkəti arasında 2023-cü ilin sonunadək bu ölkəyə 100 milyon kubmetr qaz tədarük edilməsi haqqında saziş imzalanıb. 2022-ci il dekabrın 17-də isə Prezident İlham Əliyevin təşəbbüsü ilə Buxarestdə Azərbaycan, Macarıstan, Gürcüstan və Rumıniya hökumətləri arasında Qara dənizin dibi ilə sualtı elektrik kabelinin çəkilməsini nəzərdə tutan "yaşıl enerji"nin inkişafı və çatdırılması sahəsində strateji tərəfdaşlıq haqqında sazişə imza atılıb. Bu sənədlərin icrası isə, ilk növbədə, Azərbaycanın Avropa ölkələri, o cümlədən dost Macarıstanla qarşılıqlı əlaqələrin inkişafında müstəsna rol oynayacaq.

Azərbaycan və Macarıstan geniş iqtisadi potensialı olan ölkələrdir. Bu da iqtisadi sahədə fəal əməkdaşlığa geniş imkanlar yaradır. İki ölkə arasında 2014-cü ildə imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər bu sahədə əməkdaşlığın genişlənməsinə mühüm töhfələr verir. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda Macarıstanın 21 şirkəti Azərbaycanın kənd təsərrüfatı, nəqliyyat, ticarət və xidmət sahələrində fəaliyyət göstərir. Ötən müddətdə Macarıstan Azərbaycana 1,1 milyard ABŞ dolları, Azərbaycan isə Macarıstana 18,1 milyon ABŞ dolları investisiya yatırıb.

İki ölkə arasında əmtəə dövriyyəsinin həcminin qısa zaman kəsiyində əhəmiyyətli dərəcədə artması da əlaqələrin yüksək səviyyədə olmasından xəbər verir. Hazırda Azərbaycan və Macarıstan bir çox sahələrdə, o cümlədən, nəqliyyat, informasiya texnologiyaları, energetika, ticarət, kənd təsərrüfatı sahələrində uğurla əməkdaşlıq edir. Bununla belə, sadalanan sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün imkanlar böyükdür. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə böyük maraq göstərən macar şirkətləri artıq bununla bağlı müvafiq layihələr təqdim edib.

Azərbaycanla Macarıstan arasında yeni biznes təşəbbüslərinin reallaşdırılması üçün də imkanlar genişdir. Bu təşəbbüslər isə yaxın vaxtlarda energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, əczaçılıq və ticarət sahələrində əlaqələrin gücləndirilməsinə inamı artırır. Elə ölkəmizdə yaradılmış əlverişli infrastruktur və tətbiq olunan güzəştlər, eyni zamanda, Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonasının imkanları macar şirkətlərinin ölkəmizin əlverişli biznes mühitindən yararlanmasına imkan yaradır.

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana növbəti işgüzar səfəri iqtisadi münasibətlərin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Həmin gün Budapeştdə dövlətimizin başçısı İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orbanla görüşü zamanı ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Söhbət əsnasında Azərbaycan ilə Macarıstan arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olunub, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulanıb.

Tərəflər qida sənayesi sahəsində Macarıstanın Azərbaycana investisiya qoyuluşu, əczaçılıq sənayesi sahələrində əməkdaşlıqla bağlı əldə olunmuş müsbət dinamikanı yüksək qiymətləndiriblər. Eyni zamanda, Macarıstan aviadaşıyıcısı vasitəsilə Bakı–Budapeşt reyslərinin həyata keçirilməsinin əhəmiyyətinə toxunulub, ümumilikdə, ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Dövlətimizin başçısı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa-quruculuq işlərində Macarıstan şirkətlərinin fəaliyyətə başlamasını müsbət addım kimi qiymətləndirərək bu istiqamətdə daha böyük imkanların olduğunu vurğulayıb.

Söhbət zamanı, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair Sazişin imzalanmasının əhəmiyyəti, eləcə də Orta Dəhlizlə yükdaşımaların artması vurğulanıb. Bütövlükdə isə, Prezident İlham Əliyevin dost ölkəyə səfəri yüksək səviyyədə olan əlaqələrin inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın daha da gücləndirilməsinə töhfə verəcək.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# Dünya bazarında "dizel çatışmazlığı"

## Bu azalmanın Azərbaycana təsiri ola bilərmi?

*(əvvəli 1-ci səhifədə)*

Dizel qıtlığı ilə bağlı problemi "Bloomberg" agentliyinə şərh edən analitiklərin fikrincə, ehtiyatların hazırkı səviyyəsi qış aylarında iqtisadiyyatın tələbatını ödəməyə kifayət etməyə bilər. Əgər təchizatla bağlı hər hansı bir pozulma və ya tələbin gözlənilməz artımı baş verərsə, bu yanacaq növünün qiymətində kəskin artım baş verə bilər.

Beynəlxalq ekspertlərin fikrincə, hazırda xüsusilə Avropada və ABŞ-ın Atlantik sahillərində vəziyyət gərgindir. Hətta yaxın aylarda Şimali və Qərbi Avropada dizel ehtiyatlarının azalacağı proqnozlaşdırılır. Qeyd olunur ki, hazırda neft emalı zavodları daha yüngül neft növlərinin istehsalına üstünlük verirlər ki, bu da dizel yanacağının istehsalının azalmasına səbəb olub.

Əksər analitiklər qeyd edirlər ki, hətta Çinin yanacaq ixracına yeni kvotalar verməsi də vəziyyəti kökündən yaxşılaşdırmağa kifayət etməyəcək. Belə ki, tikinti sektorundakı problemlərə baxmayaraq, Çindən daxili tələb gözləniləndən yüksək olub. Nəşrin məlumatında daha sonra bildirilir ki, qlobal iqtisadiyyat qış mövsümü ərəfəsində dizel yanacağı ehtiyatlarının tarixi minimumuna yaxınlaşıb. Bu isə qarşıdakı aylarda tədarük zəncirlərində hər hansı bir pozulma yaranacağı təqdirdə kəskin qiymət artımına gətirib çıxaracaq.

Məlum olduğu kimi, hazırda Azərbaycanda dizel yanacağından geniş istifadə olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan hökuməti 2023-cü ildə ölkədə dizel istehsalını 2 milyon 533 min ton səviyyəsində proqnozlaşdırır. Proqnozlara görə, ölkəmizdə 2024-cü ildə 2 milyon 542,6 min ton, 2025-ci ildə 2 milyon 536,5 min ton, 2026-cı ildə isə 2 milyon 535,6 min ton dizel yanacağı istehsal ediləcək. Göründüyü kimi, 2023-2026-cı illərdə Azərbaycanda dizel yanacağının istehsalı 0,1 faiz artacaq. Yeri gəlmişkən, Heydər Əliyev adına Neft Emalı Zavodunda həyata keçirilən yenidənqurma və modernləşdirmə layihəsi çərçivəsində 2023-cü ilin ikinci rübündən etibarən "Avro-5" standartına uyğun dizel yanacağının istehsalına başlanılıb. Hazırda Azərbaycanda dizel yanacağının bir litri 80 qəpiyə satılır.

Bəs, dünyada dizel qıtlığı ilə bağlı narahatlığın ölkəmizə təsiri ola bilərmi? Ekspertlər hesab edirlər ki, mövcud vəziyyətdə Azərbaycanda dizelin qiymətinin bahalaşacağı inandırıcı görünmür. Çünki istehsalatda və yükdaşımada xüsusi paya malik olan bu yanacağın qiyməti dövlət tərəfindən tənzimlənir. Onların fikrincə, ölkədə kifayət qədər dizel yanacağının istehsal olunması da qiymətləri sabit saxlamağa kömək edə bilər.



### Ekspert rəyi



**İlham ŞABAN, Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Son günlər "Bloomberg" agentliyinin dünyada dizel yanacağının qıtlığı ilə bağlı yaydığı məlumat geniş müzakirələrə səbəb olub. Bu da ondan qaynaqlanır ki, son 30 ildə Şimal yarımkürəsində və Amerika Birləşmiş Ştatlarında dizel yanacağı ehtiyatında azalma qeydə alınıb. Əslində bu, adi bir statistikadan başqa bir şey deyil. Qarşıdan gələn isitmə mövsümünün dizel qıtlığı ilə bağlı heç bir əlaqəsi yoxdur. Çünki bu mövsümdə dizelə yox, mazuta tələbat artır. Belə ki, qış aylarında isitmə mənbəyi olan qazanxanalar məhz bu yanacaqla işləyir.

Məlum olduğu kimi, son illər inkişaf etmiş ölkələrdə dizel yanacağına tələbat getdikcə aşağı düşür. Bu da ondan irəli gəlir ki, həmin ölkələrdə dizellə işləyən avtomobillərin istehsalı ilbəil azalır. Belə bir şəraitdə dizel yanacağı ehtiyatlarının azalması da təbii prosesdir. Digər tərəfdən, Rusiya– Ukrayna müharibəsində tanklardan tutmuş bütün hərbi texnikaların 90 faizi dizel yanacağı ilə işləyir. Hazırda əksər Avropa ölkələri öz ehtiyatlarının bir hissəsini məhz Ukraynaya göndərir. Bu da dizel ehtiyatlarının azalmasına gətirib çıxarır.

Üçüncü bir tərəfdən, 2023-cü il fevral ayının 5-dən Rusiyanın neft məhsullarının Avropada satışına sanksiya qoyulub. Hansı ki, Rusiya Avropa bazarında ən çox dizel satan ölkə idi. İndi isə Hindistana və digər ölkələrə ixrac edir.

Bu məsələdə mən başqa bir narahatedici məqam görmürəm. Bu, bir növ onu xatırladır ki, adətən, sentyabrın sonu, oktyabrın əvvəlində birdən-birə qazın və ya neftin qiymətində artım müşahidə olunur. Belə bir şəraitdə çoxları düşünür ki, qış mövsümü olduqca sərt keçəcək. Amma bəzən tamamilə bunun əksi baş verir. Düşünürəm ki, dizel qıtlığı ilə bağlı məlumatlar süni ajiotajdan başqa bir şey deyil.

Bir məqamı da qeyd edim ki, son günlər Avropada 1990-cı ildən sonra mazut xam neftdən ilk dəfə baha satılıb. Bu da ondan irəli gəlir ki, qaz anbarları olmayan ölkələr ehtiyat kimi məhz mazuta üstünlük verirlər. Çünki mazutun saxlanması çox asan və əlverişlidir. Belə ki, bu yanacaq növünün tədarükü üçün, sadəcə, dəmir çən kifayət edir.

Azərbaycanda da son günlər bu xəbər müəyyən narahatlıq yaradıb. Düşünürəm ki, buna heç bir əsas yoxdur, bunun ölkəmizə heç bir təsiri gözlənilmir. Çünki Azərbaycan nə Avropaya, nə Amerikaya, nə də inkişaf etmiş digər ölkələrə dizel yanacağı satır. Dizel yalnız Gürcüstana ixrac olunur. Eyni zamanda, ölkəmiz bu yanacaq növünü idxal də etmir. Dizel keyfiyyəti aşağı olan yanacaq növüdür. Ölkəmizdə onun istehsalı və istifadəsi dövlət tərəfindən tənzimlənir. Bu prosesin isə dünya bazarı ilə də heç bir əlaqəsi yoxdur.

***M.QULİYEV, "Xalq qəzeti"***

# Avtomobillərin icbari sığortası genişlənir

## Bu xidmətdən daxilolmalar 33,5 milyon manata çatıb

**Cari ilin yanvar-iyul aylarında Azərbaycanda avtomobillərin icbari sığortası üzrə yığımlar 7 ayda 92 milyon 644 min manata çatıb.**



Mərkəzi Bankdan verilən məlumata görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 56,6 faiz və ya 33 milyon 494 min manat çoxdur. Xatırladaq ki, 2022-ci ilin yanvar-iyul aylarında avtomobillərin icbari sığortası üzrə 59 milyon 149 min manat vəsait toplanılmışdı.

Yanvar-iyul aylarında avtomobillərin icbari sığortası üzrə ödənişlərin həcmi 56 milyon 655 min manat olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 11,4 faiz və ya 5 milyon 810 min manat çoxdur. Yeri gəlmişkən, ötən ilin yanvar-iyul aylarında bu sığorta növü üzrə ödənişlərin həcmi 50 milyon 845 min manat olub.

***"Xalq qəzeti"***

# Kəlbəcərin elektrik şəbəkəsi təzələnir

**"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti işğaldan azad olunmuş rayonlarımıza qayıdan sakinləri dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün genişmiqyaslı tədbirlər həyata keçirir.**

Hazırda ərazisinə görə Azərbaycanın ən böyük və yüksək dağlıq ərazidə yerləşən Kəlbəcər rayonunda sovet dövründə çəkilmiş köhnə xətlər yenisi ilə əvəzlənir.

"Azərişıq" ASC-dən verilən məlumata görə, rayonun Alagöllər, Zod, İstisu kimi relyefi çətin olan yüksəkliklərdə yerləşən ərazilər də artıq nura qərq olunub. Bugünlərdə isə Zar kəndi istiqamətində 35 kilovoltluq izolyasiyalı xətlərin çəkilişi üzrə işlərə başlanılıb. Hazırda kəndə elektrik enerjisinin verilməsi üçün dayaqlar basdırılır, xətlər çəkilir. Bununla yanaşı, rayonun Mərcimək, Yellicə və Ağqaya kəndləri istiqamətində də yenidənqurma işləri aparılır.

Ölkə Prezidenti İlham Əliyevin 2022-ci il iyunun 26-da təməlqoyma mərasimində iştirak etdiyi Kəlbəcər Reqemsal İdarəetmə Mərkəzinin tikintisi də sürətlə davam etdirilir. Mərkəz ən müasir avadanlıqlarla təchiz ediləcək. Bu da gələcəkdə Kəlbəcər rayonunun dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq.



***"Xalq qəzeti"***

# SOCAR "Uzbekneftegaz"la saziş imzalayıb

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Azərbaycan–Özbəkistan biznes forumu çərçivəsində Özbəkistanın "Uzbekneftegaz" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Baxodirjon Sidiqov ilə görüşüb.**



SOCAR-ın mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən iki ölkə arasında enerji sektorunda əməkdaşlığın genişləndirilməsinə dair verilən tapşırıqların icrası istiqamətində mühüm addımların atıldığı vurğulanıb. İyulun 18-də Şuşada keçirilmiş Azərbaycan–Özbəkistan hökumətlərarası komissiyasının son iclası çərçivəsində SOCAR ilə "Uzbekneftegaz" arasında imzalanan sənədlərin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib.

Görüşdə SOCAR ilə "Uzbekneftegaz" arasında neft, neft-kimya, qaz-kimya və digər neft məhsullarının ticarət və logistikası, kadrların hazırlanması üzrə əməkdaşlığın cari vəziyyəti və perspektivlərinə dair müzakirələr aparılıb.

Qeyd edək ki, Azərbaycan–Özbəkistan biznes forumu çərçivəsində, həmçinin tərəflər arasında "Uzbekneftegaz"ın Azərbaycan Respublikasında neft-qaz layihələrində iştirakına dair müqavilə, o cümlədən SOCAR-ın Özbəkistanda neft-qaz layihələrində iştirakına dair SOCAR, Özbəkistan Respublikasının Mədən və Geologiya Nazirliyi və "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

***"Xalq qəzeti"***

# Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları peşə bayramlarını qeyd ediblər



**Azərbaycan Prezidentinin 2008-ci il 21 avqust tarixli Sərəncamı ilə hər il avqustun 23-ü xüsusi dövlət mühafizə xidməti əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur. Bu münasibətlə Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində təntənəli yubiley mərasimi keçirilib.**

Agentliyin rəisi general-mayor İlqar Abbasov qeyd edib ki, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ixrac neft və qaz boru kəmərlərinin mühafizəsini, o cümlədən, mühafizə olunan şəxslərin və əksər strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi, mühafizə olunan şəxslər və obyektlərə qarşı ola biləcək təhlükələrin qarşısının alınması sahəsində qanunamüvafiq qaydada fəaliyyət göstərir. Beynəlxalq terrorizmin və sui-qəsdlərin geniş vüsət aldığı vaxta mühafizə işinin təkmilləşdirilməsi, elm və texnikanın nailiyyətlərindən istifadə olunması, yüksək peşəkarlığa malik kadrların hazırlanması Agentliyin qarşısında duran əsas vəzifələrdir.

İlqar Abbasov qarşıda duran şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün Agentliyinin əməkdaşlarına tükənməz fiziki və mənəvi qüvvə arzulamaqla peşə bayramı münasibətilə şəxsi heyəti təbrik edib.

Sonda Agentliyin xidmətdə fərqlənən və vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuları "Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının yaradılmasının 30 illiyi" yubiley medalı, digər medal və mükafatlarla təltif ediliblər.

*Q.QƏZƏNFƏR,*
*"Xalq qəzeti"*

# Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin 30 illik yubileyi təntənəli şəkildə qeyd edilib

**Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin şəxsi heyəti Xidmətin 30 illik yubileyi münasibətilə Xidmətin inzibati binasında təntənəli yubiley mərasimi keçirilib.**

Xidmətin rəisi general-leytenant İlqar Musayev tədbirdə çıxış edərək qeyd edib ki, 1993 -cü il avqustun 23-də ulu öndər Heydər Əliyevin fərmanı ilə Xüsusi Dövlət Mühafizə Xidməti, onun əsasında Prezident İlham Əliyevin 2020-ci il 16 mart tarixli Fərmanı ilə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yaradılıb.

Xidmət rəisi ölkədə etibarlı rabitə-kommunikasiya sisteminin yaradılması və informasiya təhlükəsizliyinin mühafizəsi üzrə mühüm vəzifələrin yerinə yetirilməsində Xidmətin səmərəli rolunu vurğulayıb.



Sonra İlqar Musayev Xidmətin bir sıra əməkdaşlarının təltif olunması haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamlarını oxuyaraq, bu münasibətlə təltif olunanları təbrik edib.

Sonda Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin kollektivi adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul edilib.

*Q.QASIMOV,*
*"Xalq qəzeti"*

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bəyanatı

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan ermənilərə humanitar yüklərin çatdırılmasına dəstək verməyə hazırdır.**

Bu barədə qurum bəyanatla çıxış edib. Sənəddə deyilir:

"Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1920-ci ildən bəri Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olaraq, istər Birinci Qarabağ savaşı, istər Vətən müharibəsi zamanı, istərsə də yeni növ koronavirus (COVID-19) pandemiyası dövründə Beynəlxalq Qızıl Xaç Komitəsi və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası ilə sıx əməkdaşlıq çərçivəsində zərərçəkmiş şəxslərə müvafiq humanitar yardımlar göstərib. 30 illik fəaliyyətləri dövründə hər iki beynəlxalq qurum respublikada humanitar sahədə kifayət qədər müxtəlif layihələr həyata keçirib. Təəssüflər olsun ki, son vaxtlar Qarabağ bölgəsində yaşayan erməni sakinlərin humanitar ehtiyacları mövzusu ətrafında qərəzli kampaniya aparılmasının şahidi oluruq.

Bunu nəzərə alaraq, AzQAC bəyan edib: "Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Respublikasının Konstitusiyasına, "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanunun 3.0.1; 3.0.8; 3.0.9 maddələrinə, "Qızıl Xaç və Qızıl Aypara Emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Qanunun 6, 9, 15-ci maddələrinə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsinə, Beynəlxalq Hərəkatın "vahidlik" prinsipinə, Beynəlxalq Federasiyanın Konstitusiyasına və mandatına uyğun olaraq, əməkdaşlarının və könüllülərinin köməyi ilə Ağdam-Xankəndi yolu ilə zəruri ərzaq, tibbi ləvazimat, dərman preparatları, geyim və s. ilə təchiz olunmuş istənilən humanitar yükün erməni millətindən olan sakinlərə çatdırılmasına dəstək verməyə hazırdır".

Belə ki, bu humanitar missiyanı həyata keçirmək həm milli qanunvericiliyin, həm də Cenevrə konvensiyaları və ona edilmiş əlavələrin, həmçinin 1997-ci ildə qəbul edilmiş Sevilya Razılaşmasına 2022-ci ildə edilmiş müvafiq dəyişikliyin tələblərinə tam uyğundur. Həmin dəyişikliyə əsasən, humanitar yardımların həyata keçirilməsində aparıcı rol milli cəmiyyətlərə verilir. Bu humanitar missiyanın həyata keçirilməsi üçün milli cəmiyyət kimi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün potensialı səfərbər olunub".

*"Xalq qəzeti"*

# Naftalanda səyyar görüşlər



**– Əgər səyyar görüşdə sakinlərin qaldırdığı problemlər həll olunmayacaqsa, gəlin onu keçirməyək...**

Şəhər icra hakimiyyəti başçısı Vüqar Novruzovun hələ 2020-ci ilin yanvarında aparat müşavirələrinin birində bir qədər məzəmmətlə, bir qədər də sərt dediyi bu sözləri hamı ciddi bir xəbərdarlıq kimi qəbul etdi.

Elə o vaxtdan etibarən belə görüşlərdə qaldırılan məsələlər tədricən öz müsbət həllini tapmağa başladı. Çünki ölkə Prezidenti İlham Əliyevin vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması ilə bağlı verdiyi tapşırıq və tövsiyələri rəhbər tutaraq, Naftalanda vətəndaşlarla səyyar görüşlərin keçirilməsi, onların qaldırdıqları məsələlərin operativ həlli, ərizə və şikayətlərə baxılaraq, həll olunması üçün müvafiq tədbirlərin görülməsi şəhər icra hakimiyyətinin daim nəzarətində saxlanılır və bu, bir ənənə şəklini almışdır.

Səyyar görüşlərdə sakinlərin qaldırdıqları məsələlərin dərhal nəzarətə alınması, bu işi icra edənlərin hesabatlarının dinlənilməsi və ən əsas da şəhər icra hakimiyyəti başçısının işlərin gedişinə özü nəzarət etməsi Naftalanın son illər nəzərəçarpacaq dərəcədə abadlığına, gözəlləşdirilməsinə, müasir kurort şəhərinə çevrilməsinə səbəb olmuşdur.

*Hamlet QASIMOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*



# Hindistanın kosmik gəmisi Ayın cənubuna enib

**Hindistanın "Çandrayaan-3" kosmik gəmisi Ayın cənub qütbünün yaxınlığına enib.**

"XQ" xarici KİV-lərə istinadən xəbər verir ki, Hindistan Ayın bu hissəsinə kosmik aparat göndərən ilk ölkə olub.

Xatırladaq ki, Hindistan ABŞ, keçmiş Sovet İttifaqı və Çindən sonra Aya eniş edən dördüncü ölkədir.

Qeyd edək ki, bir neçə gün önəcə Rusiyanın "Luna-25" kosmik aparatı da Ayın eyni hissəsinə eniş etmək istəyib, ancaq qəzaya görə missiya uğursuz alınıb.



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2023-cü ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini<br>Əhmədov Əli Cavad oğlu | 4 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 5 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Əmiraslanov Azər Kamal oğlu | 25 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 8 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 11, 26 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 12, 27 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 13, 28 |
| Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən<br>Həbibbəyli Ərəstü İsa oğlu | 14 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 15, 29 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 18 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 19 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 7, 20 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 21 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 22 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# A.Hacızadə: Melani Joli yenə separatçılığı dəstəkləyir

**Kanadanın xarici işlər naziri Melani Joli erməni icmasının tədbirində çıxışı zamanı Azərbaycanın Qarabağ bölgəsinə istinadən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı fikirlər səsləndirməsini qətiyyətlə pisləyirik.**

Bu barədə XİN-in mətbuat katibi Ayxan Hacızadə Melani Jolinin erməni icmasının tədbirində çıxışı zamanı səsləndirdiyi fikirlərə dair şərhində bildirib.

"Kanada xarici işlər nazirinin Azərbaycan əleyhinə əsassız şəkildə bəyanatlar verməsi qarşı tərəfdən nümayiş etdirilən qərəzli yanaşmanın nümunəsidir. Kanada tərəfinin bu kimi bəyanatları bölgədə sülhə və sabitliyə xidmət etmir və qəbuledilməzdir.

Bir daha, Kanada tərəfindən bu kimi təhrikedici addımlardan çəkinməyi və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşmağı tələb edirik. Kanada həqiqətən də bölgədə dayanıqlı sülhün təmin olunmasını istəyirsə, o zaman beynəlxalq hüququn norma və prinsiplərinin tələblərinə uyğun davranmalıdır. Bunun əksi bölgədə sülhün bərqərar olması prosesinə zərər verməkdən başqa bir şey deyil", – deyə Ayxan Hacızadə vurğulayıb.

# Müdafiə Nazirliyinin məlumatı

**Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə "XQ"-yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən "XQ"-yə verilən məlumata görə, 2023-cü il üçün imzalanan birgə tədbirlər planına uyğun olaraq, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin nümayəndələri "N" hərbi hissəsində şəxsi heyətlə görüşüb, onlarla söhbətlər aparıblar.

Tədbir çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması, psixoloji sağlamlıqlarının qorunması məqsədilə söhbətlər aparılıb, lazımi tövsiyələr verilib. Həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti şəxsi heyətin diqqətinə çatdırılıb.

# İcmanın müraciəti BMT-nin rəsmi sənədləri sırasında

**Qərbi Azərbaycan İcması və digər vətəndaş cəmiyyəti təşkilatlarının müraciəti BMT şuralarının rəsmi sənədləri kimi yayılıb.**

Bu barədə "XQ"-yə Qərbi Azərbaycan İcmasından məlumat verilib.

"Ermənistanın apardığı etnik təmizləmə, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər nəticəsində azərbaycanlıların onilliklər ərzində məruz qaldıqları iztirab və məhrumiyyətlərə beynəlxalq ictimaiyyətin biganəliyi və ikili standartları ilə bağlı Qərbi Azərbaycan İcması və Azərbaycan Respublikasının digər vətəndaş cəmiyyəti təşkilatları 2023-cü il iyulun 28-də müraciət qəbul etmişdi. Həmin müraciət BMT Baş Assambleyası, Təhlükəsizlik Şurası və İqtisadi və Sosial Şuranın rəsmi sənədləri kimi yayılıb.

*"Xalq qəzeti"*

# Yevgeni Priqojin qəzada həlak olub

**Rusiyanın Tver vilayətində "Vaqner" silahlı qruplaşmasının rəhbəri Y.Priqojinə məxsus "Embrair" biznes-jet qəzaya uğrayıb. Bu barədə Rusiya Federal Hava Nəqliyyatı Agentliyi məlumat yayıb.**

FHN-in məlumatına görə, təyyarənin göyərtəsində olan 3 nəfər heyət üzvü və 7 sərnişin həlak olub. Rusiya mətbuatında təyyarənin sərnişinləri siyahısında Yevgeni Priqojinin də olduğu bildirilir.



*"Xalq qəzeti"*

# İranda Zəngəzur dəhlizinə ikili münasibət

**2020-ci ilin payızında Azərbaycanın apardığı müqəddəs Vətən müharibəsinin 44 gündə Qarabağı və Şərqi Zəngəzuru 30 illik işğaldan azad etməsi ilə nəticələnməsi qonşu İranın Ermənistanla yaxın münasibətlərində ölkəmizə qarşı yeni ortaq cəbhə açdı. İşğalçı ölkə ilə müttəfiqliyin Azərbaycana qarşı cızdığı qırmızı xətlərdən biri də İslam dövlətinin Şərqi Zəngəzurla Naxçıvan Muxtar Respublikasını birləşdirən kommunikasiyanın açılmasını inadla əngəlləmək siyasəti oldu.**




Müharibədə Ermənistan təslim aktı olan 2020-ci ilin 10 noyabrda Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş nazirinin imzaladığı üçtərəfli Bəyanatın 9-cu bəndi, o cümlədən sənədin nəqliyyat əlaqələri ilə bağlı müddəası (“Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir”) İranda ciddi narahatlıqla qarşılanmışdır.

Diqqət edildikdə aydın görünür ki, İranın çəkdiyi qırmızı cizgilərin nə bir geosiyasi, nə siyasi, nə də real əsası yox idi. Çünki Azərbaycanın İrana münasibətdə nə işğalçılıq, nə sərhədlərin dəyişdirilməsi kimi planları yox idi. İranın cizgilər, xüsusən sərhədlərin dəyişməməsi ilə bağlı qırmızı xətti onun Qafqaz siyasətinin nə qədər məkrli olduğunu bir daha əyani nümayiş etdirir. İran Azərbaycan Respublikası ərazisinin 20 faizinin işğal edilməsinə, sərhədinin 132 kilometrinin faktiki dəyişməsinə, yəni Ermənistan silahlı qüvvələrinin nəzarətinə keçməsinə 30 il zahirən səssiz qalıb. Bu ölkə həmin vəziyyətlə nəinki razılaşıb, hətta təcavüzkara hərtərəfli dəstək verib. Azərbaycan ermənilərin sərhədinin bir metrini belə öz nəzarəti altına almadığı halda, İran ölkəmizin Ermənistana təcavüzü barədə xəbərdarlıq edirdi.

İran unudur ki, Azərbaycanın qələbəsi nəticəsində artıq yeni geosiyasi reallıq yaranmışdır. Onu görmək istəməmək, qəbul enməmək iddiasına düşmək Azərbaycana qarşı düşmənçilik münasibəti sərgiləməkdən başqa cür dəyərləndirilə bilməz. Ədalət naminə demək lazımdır ki, İranda Zəngəzur dəhlizinə münasibətdə prezident H.Ruhani hökumətinin (2013-2021) fəaliyyətinin sonuna (iyun 2021) kimi 2 mövqe mövcud idi. Hökumət nümayəndələrindən bəzilərinin yumşaq müsbət, silahlı qüvvələri təmsil edən və birbaşa ali siyasi Rəhbərə tabe olan SEPAH kimi qoşun növləri komandanlarının və onlara yaxın dairələrin isə radikal mənfi münasibəti açıq-aydın seçilirdi.

Azərbaycanın Vətən müharibəsində qələbəsini təsbit edən 10 noyabr üçtərəfli bəyanatını şərh etməyə başlayan İranın həm rəsmi, həm özəl media qurumları, ekspertlərin bir çoxu ölkəmizin qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək nəqliyyat-kommunikasiya əlaqəsi haqqında bir sıra həqiqətə uyğun olmayan fikir və şayiələr yaymış, İran hökuməti də həmin mövqeyə seyrçi mövqe sərgiləmişdir. 13 noyabr 2020-ci il tarixində İİR Xarici İşlər nazirinin siyasi işlər üzrə müavini Seyid Abbas Əraqçi gələcəkdə açılacaq Zəngəzur dəhlizi haqqında danışarkən demişdir: “İranın Ermənistan və Azərbaycana tranzit marşrutu dəyişmir. Naxçıvan–Zəngəzur yolu ilə bağlı şayiələr əsassızdır. Geopolitik dəyişiklərdən söz getmir. İran–Ermənistan sərhədi yerindədir”.

15 noyabr 2020-ci il tarixində məsələyə daha pozitiv yanaşma sərgilənir. Belə ki, İran saytlarından birində yerləşdirilmiş “Sülh dalanı –bölgə əməkdaşlığının genişləndirilməsi üçün irəli sürülən təşəbbüs” adlı yazıda dəhlizin Ermənistan–İran sərhədini bağlamadığı vurğulanır. Belə tranzit marşrutların çox olması arzusu ifadə edilir və göstərilir ki, bunlar: “Sülh dəhlizləridir. Çünki əməkdaşlığı asanlaşdırır. İran əməkdaşlığın inkişafına dair kompleks plan üzərində işləməlidir”.

İİR hökuməti dəhliz məsələsi ətrafında yaradılan hay-küyə aydınlıq gətirməkdə davam edirdi. 18 noyabr 2020-ci il tarixində hökumətin rəsmi orqanı olan “İRNA” (İslam Respublikasının Xəbər agentliyi) saytında gedən “Qarabağ atəşkəsi və Zəngilan–Naxçıvan dəhlizi haqqında gerçəklər” adlı yazıda qeyd edildi ki, İran ilə Ermənistan arasında sərhədin əldən getməsi haqqında şayiənin heç bir əsası yoxdur. İran ilə Azərbaycan arasında yeni keçid yaranacaq. Azərbaycan əməkdaşlıqda qərarlıdır.

Zəngəzur dəhlizinin İranın geosiyasi, geoiqtisadi mövqeyini zəiflədəcəyi barədə hay-küyə cavab olaraq qeyd edilirdi ki, kiçik bir dəhliz İranın əhəmiyyətini azaltmaz. Əksinə, bundan Azərbaycan–İran əməkdaşlığı daha çox mənfəət əldə edəcək. 21 noyabr 2020-ci il tarixində İran saytlarından birində “Regionda yaranmış yeni reallıqlar haqqında” yazıda qeyd edilirdi ki, Naxçıvan yolu regional əlaqələrdə fundamental dəyişikliklərə səbəb olmayacaq.

İranda hökumətin (İcra hakimiyyətinin) səlahiyyət və imkanları məhdud olduğundan, bir neçə qərar qəbuletmə mərkəzinin varlığı və Rəhbərə birbaşa tabe qüvvələrin müstəqil və bir çox hallarda hökumətin (islahatçı və ona yaxın dairələri təmsil etdiyi vaxtlarda) xəttinə zidd, onun mövqeyinin zəiflədilməsinə yönəlmiş siyasət yeritməsi bu ölkənin Azərbaycan siyasətində şovinist-millətçi, imperiya düşüncəli təcavüzkar dairələrin yeritməkdə olduğu siyasətin üstünlük qazanmasına şərait yaradırdı.

İranda qeyd edilən, xüsusən güc strukturlarını təmsil edən dairələr və onların informasiya agentlikərində dəhliz məsələsinə uydurma təhlükə prizmasından yanaşılması, onun, guya, İranın tranzit, nəqliyyat, infrastruktur sahələri, milli təhlükəsizlik və s. üçün təhdid təşkil etdiyi iddiası davam etdirildiyindən artıq hökumət həmin məsələyə münasibət bildirməkdən vaz keçirdi. Çünki hələ müharibə dövründə formalaşan radikal anti-Azərbaycan ideologiyası tərəfdarları hökumətin mövqeyinə və dediklərinə əhəmiyyət vermirdilər.

13-cü prezident seçkilərində (yay 2021) qalib gələn radikal mühafizəkarların təşkil etdiyi hökumət işə başayandan sonra (13 avqust) hökumət (İcra hakimiyyəti) ilə digər radikal dairələr arasında fikir və mövqe ayrılığına son qoyulmuş və artıq bütün hakimiyyət vahid cəbhədən çıxış etməyə başladı. Ona görə də rəsmilər, hakimiyyəti təmsil edən ekspertlər və media nümayəndələri Zəngəzur dəhlizi ilə bağlı mənfi rəy formalaşdırmaqda davam edirdilər. Yeni hökumətin 2022-ci ilin sonlarına qədərki fəaliyyəti ərzində İranda cəmi bir neçə dəfə dəhlizlə bağlı obyektiv mövqe müşahdə etmək mümkün idi.

Birinci dəfə belə mövqe ekspert tərəfindən bəyan edilmişdir. 6 oktyabr 2021-ci il tarixində Türk və Qafqaz üzrə mütəxəssis - Seyid Əli Qaimməqaminin yazısında İran strateqlərinin qızışdırdığı əsassız iddialar – Süni–Qafan vilayətinin işğal ediləcəyi və Zəngəzur dəhlizinin işə düşməsi ilə Çinin “Bir kəmər, bir yol” layihəsinin aradan qalxacağı kimi fikirlər kökündən yanlış hesab edilirdi. Əksinə, Mərkəzi Asiya, Qafqaz və Türkiyənin həmin layihənin işə düşməsində maraqlı olduqları vurğulanırdı. Müəllif İranda məsələyə birtərəfli yanaşmanı mütəxəssislərinin ölkə ətrafında baş vermiş məsələlərdən və regionun strateji məsələlərindən xəbərsiz və məlumatsız olmaları ilə izah edirdi.

Qeyd edilən dövrdə məsələyə ikinci dəfə obyektiv yanaşma müşahidə edilir. Belə ki 4 dekabr 2021-ci il tarixində “Trendnews” agentliyinə müsahibə verən İranın Azərbaycandakı keçmiş səfiri Möhsün Pakayin deyir: “İran da Zəngəzur dəhlizindən istifadə edə bilər”. Sonra o əlavə edir : “Zəngəzur dəhlizi Şərq-Qərb dəhlizinin bir hissəsidir və onun canlandırılması İran-Ermənistan sərhədinə təsir etməyəcək. Tehran sovet dövründən qalan ənənəvi yolların dirçəldilməsinin əleyhinə deyil, hətta buna müsbət yanaşır”.

İrəli gedərək qeyd etmək lazımdır ki, həmin müsahibə haqqında məlumat verən İran saytı öz şərhində keçmiş səfirin dediklərinə qarşı fikir bildirmişdir. Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı yeni hökumətin fəaliyyəti dövründə qeyd edilən nadir obyektiv mövqe müstəqil ekspertlər tərəfindən sərgilənmişdir və hakimiyyətin mövqeyinə heç bir təsir göstərmək imkanına malik deyildi. Bununla da bizim ardıcıl izlədiyimiz 5 saytda Zəngəzur dəhlizi ilə bağlı az-çox obyekyiv və müsbət yanaşmalar başa çatmış oldu.

***Vidadi MUSTAFAYEV,***
***AMEA Şərqşünaslıq İnstitutu***
***İran şöbəsinin müdiri, professor***

# Yeni qadağalar etiraz doğuracaqmı?

**70 maddədən ibarət yeni qanun layihəsində baş örtüyündən imtina edən qadınlar üçün daha böyük məbləğdə cərimələr və uzun müddətə azadlıqdan məhrumetmə cəzaları nəzərdə tutulur. Bundan sonra yeni qanun Konstitusiyanı Qoruma Şurasına təqdim olunacaq. Həmin şura İranın Ali dini lideri Əli Xameneinin təyin etdiyi ruhanilərdən və hüquqşünaslardan ibarətdir.**

Bu barədə məlumat yayan CNN telekanalı bildirir ki, yeni qanuna əsasən, qaydanı pozanları 10 ilə qədər həbsxana cəzası, yaxud 360 milyon rial (7.800 avro) cərimə gözləyir. Yəni, əvvəlki qanunla müqayisədə cərimənin miqdarı min (!) dəfə artırılıb. Bundan savayı, yeni qaydalara riayət etməyən tanınmış şəxslərə və ya şirkətlərə qarşı tətbiq olunacaq cəzalar xeyli sərtləşdirilib. Hətta indi qayda pozucularını aşkar etməkdən ötrü süni intellekdən istifadə üsulları da nəzərdə tutulub.

Qanunların sərtləşdirilməsinin konkret səbəbi göstərilməsə də, bu addım ötən il 22 yaşlı Mahsı Aminenin polis idərəsində ölümündən sonra başlayan və uzun müddət səngiməyən kütləvi etiraz aksiyalarına rəsmi Tehranın cavabı kimi qiymətləndirilir. Qeyri-rəsmi məlumatlara əsasən, həmin etiraz aksiyalarında 500-dən çox adam öldürülüb, 10 mindən artıq yerli sakin həbs edilib. Amma buna baxmayaraq İranda qadınların baş örtüyünə qarşı mübarizəsi davam edir.

Bəs indi nə baş verəcək? Cəmiyyət rejimin sərtləşdirdiyi qaydalara, bununla bağlı həyata keçirəcəyi tədbirlərə tabe olacaqmı? **Bu suallara aydınlıq gətirməyə çalışan Rusiya EA Şərqşünaslıq İnstitutunun böyük elmi əməkdaşı Lana Ravandi-Fedai** əsas problem kimi İranda baş örtüyü ilə bağlı azad sosioloji sorğular keçirməyin mümkünsüzlüyünü qeyd edib. O, İranda qadınların çarşaba münasibətinin real statistikasının bilinmədiyinə diqqəti çəkir: “Rəsmən hesab olunur ki, əgər ölkədə əhalinin böyük əksəriyəti müsəlmandırsa, deməli, qadınların və qızların əksəriyyəti başlarını örtməyi normal sayır. Amma əminliklə deyə bilərik ki, İranın böyük şəhərlərində, əxlaq polisinin əli çatmayan rayonlarda qadınların çoxu çarşabı ya sərbəst formada örtürlər, ya da onu, ümumiyyətlə, başlarına bağlamırlar”.

Rusiyalı alimin fikrincə, başlarını örtməyən qadınların heç də İslamdan uzaqlaşdığını düşünmək olmaz. Onlar qəlblərində Allaha inamlarını qoruyub saxlaya bilər, amma bu zaman dinə modern baxışlara sahib olduqlarını, orta əsrlərdən qalma qaydalara riayət etmədiklərini büruzə verirlər.

Ravandi-Fedai belə təmayüllərin mövcud rejim üçün arzuolunmaz nəticələrə gətirib çıxara biləcəyinə də işarə vurur: “Bu o deməkdir ki, İranda rejimin ideologiyasının başlıca sütunlarından biri qəfildən laxlaya və hakimiyyətin dayanıqlığına mənfi təsir göstərə bilər”. Alim yeni hüquqi-siyasi şəraitdə İranda kütləvi etirazların bərpa olunub-olunmayacağını bir sıra amillərdən, hər şeydən əvvəl iqtisadi sabitlikdən asılı olacağını söylədi.

**Məsələyə münasibətini bildirən Yerusəlimdəki Asiya və Afrika İnstitutunun müəllimi, elmlər doktoru Vladimir Mesamed hesab edir ki,** İranda qadınlara qarşı tətbiq olunan dini məhdudiyyətlər olduqca ciddi şəkil almaqdadır.




“Orada qayda pozuntularına ən yüksək səviyyədə nəzarət edilir. Bunu İran mediasından da görmək mümkündür. Misal üçün, avqustun 22-də Fars informasiya agentliyi yazmışdı ki, çarşab mövzusu mövcud İslam hökumətinin başlıca prioritetlərindən biridir. Elə sonuncu qanuna nəzər yetirsək görərik ki, ona bir ay ərzində parlamentdə, İslam Şurası Məclisində baxılıb. Qanuna salınmış 20 yeni maddə yalnız baş örtüyünə riayət olunması ilə bağlıdır. Məhdudiyyətlər məsələsi quruluşun əxlaqının göstəricisidir və bu səbəbdən ona dini idarəetmənin əsasları kimi baxırlar”.

Gələn xəbərlərə görə, indi İranda baş örtüyü qaydasını tam gözləməyən bir çox təşkilatları iş lisenziyasından məhrum edirlər, müəssisə və idarələri bağlayırlar. Avqustun 21-də belə bir informasiya yayıldı ki, Təbriz Universitetinin mədəniyyət fakültəsində, onun yataqxanasında tətbiq olunan qaydaya görə, qız tələbələr binadan gün ərzində yalnız 1 saatlığa bayıra çıxa bilərlər. Bununla bağlı “Iran Press News“ qəzeti yazıb ki, bu məhdudiyyət İran həbsxanalarında məhbuslara qarşı irəli sürülən tələblərdən daha sərtdir. Hazırda Tehran rejiminin problemi nizamlamağa çalışdığına diqqəti yönəldən Vladimir Mesamed güman edir ki, gənc qadının polis idarəsində ölümünün ildönümünə hazırlıq gedir və etirazların yenidən kütləvi hal ala biləcəyi gözlənilir.

Ümumiyyətlə, son vaxtlar İİR-də baş örtüyündən istifadə olunmaması halları kifayət qədər geniş yayılıb. Amma aydındır ki, əgər yeni qanun qüvvəyə minsə, yeni məhdudiyyət və tələblər cəmiyyətin müəyyən qismində qorxu əmələ gətirəcək.

“Hərçənd artıq İranda etiraz aksiyalarına qoşulmaqdan qorxmayan qadınların sayı xeyli artıb. Amma onu da nəzərə almaq lazımdır ki, yeni qanun layihəsi çox sərt və qəddardır. Onun sonuncu mərhələdən – Müşahidə Şurasında baxışdan keçməsi qalıb. Həmin Şura əsas etibarı ilə hüquqi sistemin mühafizəkar nümayəndələrindən ibarətdir və yeni qanunu yekdilliklə qəbul edəcəklər”.

Asiya və Afrika İnstitutunun müəlliminin bu qənaətində nə qədər haqlı olduğunu yaxın vaxtlarda görəcəyik.

***Hazırladı:***
***İ.HƏSƏNQALA,***
***“Xalq qəzeti”***

# Güneydə milli haqlar uğrunda dönməz mübariz

**Azərbaycanın güneyində və quzeyində adı eyni sevgi və ehtiramla anılan milli ziyalılardan biri də Məhəmmədtağı Zehtabidir. “Coşğun vətənsevər və millət fədaisi” sayılan görkəmli tarixçi-filoloqun ömür yolu Azərbaycanın bütövlük məfkurəsinin formalaşması uğrunda mübarizənin ön sıralarında keçib.**

Məhəmmədtağı Məmmədəli oğlu Zehtabi 1923-cü ilin dekabrın 13-də Güney mahalının Şəbüstər şəhərində sənətkar ailəsində doğulub. O, 1930–36-cı illərdə təzə açılmış dövlət məktəbində oxuyub, 1938-ci ildən təhsilini Təbrizdəki Firdovs mədrəsəsində davam etdirib. Bu dövrdə şeir yazmağa başlayan Məhəmmədtağı həmyerlisi, satirik şeirlərilə xalqının məhəbbətini qazanmış Mirzə Əli Möcüz Şəbüstərinin təsiri ilə qələmə aldığı tənqidi mənzumələrini 1941-ci ildə Təbrizdə çıxan “Azərbaycan” və “Xavəri no” qəzetlərində çap etdirib. Yaradıcılığa farsca başlasa da, az sonra ana dilində yazıb-yaradıb, ərəb və fransız dillərini də öyrənib.

Zehtabi haqqında portret yazının müəllifi türkoloq Əli Şamil qeyd edir ki, İkinci Dünya savaşında güneydən gələ biləcək faşizm təhlükəsindən qorunmaq adı altında sovet ordusunun 1941-ci ilin avqustunda İrana daxil olması, hərbi kontingetin tərkibində Bakıdan ezam edilmiş ziyalıların Təbrizdə, Urmiyədə, Zəncanda, Ərdabildə və başqa şəhər və kəndlərdə apardığı iş, anadilli mətbuatın, teatrın, konservatoriyanın yaradılması yerli aydınları ana dilində yazıb-yaratmağa və tarixlərinə sahib çıxmağa həvəsləndirmişdi. Belə bir şəraitdə mədrəsə məzunu Məhəmmədtağı 1941-ci ildə Təbrizdə Rüşdiyyə məktəbində müəllimliyə başlayır.

1945–46-cı illərdə Təbrizdə Milli Hökumət qurmuş Azərbaycan Demokrat Firqəsi gənclər təşkilatına rəhbərlik etmiş Zehtabi Təbrizdə açılmış milli universitetə daxil olub. Milli haqları gerçəkləşdirən mühitin təsiri ilə Məmmədtağı yazdığı “Cavanlar” şerini 1945-ci ildə “Azərbaycan” qəzetində çap etdirib. 1946-cı ilin dekabrın 12-də Milli hökumət qan içində boğulan zaman onun rəhbərlərinə və fəallarına qəddarlıqla divan tutulduqda 23 yaşlı Məmmədtağı 2 il gizli yaşayaraq ictimai-siyasi fəaliyyətini davam etdirib.

Məmmədtağı Zeytabi İranda şah rejiminin hökm sürdüyünü, ictimai-siyasi fəaliyyətlə açıq məşğul olmağın və milli dildə ali təhsil almağın mümkün olmadığını görüb 1948-ci ildə gizli yolla “azadfikirlilər ölkəsi” kimi tanıdılan SSRİ-yə üz tutub. Sovet Azərbaycanına gələn Məmmədtağının ümidləri puça çıxıb. Sərhədi keçən kimi onu həbs ediblər. Məsləkdaşı olduğu Tudə və Azərbaycan Demokrat firqələri isə onu müdafiə etməyib. “Sovet sərhədlərini pozmaqda” Sibirə göndərilir. Gənc vətənpərvər bu haqsızlığı həbsxanada belə ittiham edir:

*Azad doğulan insana qandal nə gərəkdir?*
*Qandalları qırmışlara zindan nə deməkdir?*
*Dünya nələrin var? Əfsanələrin var?*
*Biçarə bəşər, ölçüyə gəlməz kədərin var.*

3 il həbs cəzasına məhkum olmuş Məmmədtağı Zehtabinin Sibirə gedişi və dönüşü 4 il çəkib. O, burada rus dilini öyrənib, orta təhsil alıb. Bakıya dönən gənc şair 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub. Şərq dillərini və ədəbiyyatını dərindən bilən tələbəni sonuncu kursda oxuduğu ali məktəbin şərqşünaslıq fakültəsinin ərəb dili bölümünə dərs deməyə dəvət ediblər.



1971-ci ilədək Bakıda yaşayan və universitetdə dərs deyən Zehtabi “Əbu Nəvasın həyatı və yaradıcılığı” mövzusunda elmi araşdırma aparıb və filologiya elmləri namizədi elmi dərəcəsi alıb.

Əli Şamil qeyd edir ki, sovet rejiminin ikiüzlü siyasətindən cana doyan Zehtabi 1971-ci ildə İraqa mühacirətə getməyə məcbur olub. O, Bağdad Universitetində əski türk və fars dillərindən dərs deyib. Az zamanda istedadlı şərqşünas kimi tanınıb, Bağdad Universitetinin professoru seçilib.

Universitetdə dərs deməklə yanaşı, ictimai-siyasi fəaliyyətini də davam etdirən Zehtabi şah rejimindən qaçıb xarici ölkələrdə təşkilatlanan həmyerliləri ilə sıx əlaqə qurub, Güney mühacirlərinin onların nəşr edilən “Ərk” jurnalına redaktorluq edir. O, Bağdadda 5 dildə nəşr olunan “İmmihad yolu” qəzetinin də redaktou olub və burada şeir və məqalələrini çap etdirir. İraqda yaşadığı illərdə Zehtabinin Berlində “Bəzz qalası”, İstanbulda “Celik əfsanəsi”, Bağdadda fars dilində yazdığı “İran şahlarının 2500 illik cinayətləri” və ana dilində yazdığı “Pərvanənin sərgüzəştləri” kitabları işıq üzü görüb. İraqda yaşadığı 8 il, senzor nəzarəti altında olsa da, yaradıcılığının ən məhsuldar dövrü olub.

Yurdsevər ziyalının bu dövr həyatından bəhs edən Əli Şamil göstərir ki, İranda şah rejimini devirən inqilab Zehtabini və mühacirətə getmiş bir çox ictimai-siyasi xadimi, elm adamını yeni mübarizəyə ruhlandırır. Onlar vətənlərini demokratik bir ölkəyə çevirmək, xalqlarının firavan yaşamasını təmin etmək üçün Vətənə dönürlər.

1979-cu ilin iyunun 23-də, 31 illik ayrılıqdan sonra Güneyə qayıdan Zehtabi siyası burulğana düşüb. Belə bir qarışıq vaxtda o, ictimai-siyasi fəaliyyətini davam etdirməklə yanaşı, Təbriz Universitetində türk və ərəb dillərindən dərs deməyə başlayıb. Bağdadda çap olunmuş “Pərvanənin sərgüzəştləri” şeirlər kitabını 1980-ci ildə Təbrizdə də nəşr etdirib.

Şairin Pəhləvi rejiminin türk dilinə qənim kəsilməsinə etiraz olaraq yazdığı “Sən osan, mən buyam” adlı şeiri İslam rejimi zamanı da dillər əzbərinə çevrilib:

***Su deyibdir mənə əvvəldə anam, ab ki yox,***
***Yuxu öyrətdi uşaqlıqda mənə, xab ki yox.***
***İlk dəfə ki, çörək verdi mənə, nan demədi,***
***Əzəlində mənə duzdanə nəməkdan demədi.***

Uzun illər Güneydə xalqın başına min bir oyun açmış şah rejiminin antitürk siyasətini hakimiyyətə gəlmiş din xadimlərinin dvam etdirdiyini, verdikləri vədi unutduqlarını görən Zehtabi milli haqlar uğrunda mübarizəsini davam etdirib. O, “Fars dili İranda yaşayan başqa millətlərin dilindən üstündürmü?” adlı kitabçasını yazaraq Tehranda və Təbrizdə yayıb.

Yeni hakimiyyətə gələn din xadimləri Zehtabinin apardığı təbliğatın onların yeritdiyi siyasətlə uyğun gəlmədiyini görərək 1981-ci ildə alimi həbs ediblər. 4 illik istintaqdan sonra onun hər hansı bir təşkilat və siyasi partiya ilə bağlılığını sübut edə bilmədiklərindən azadlığa buraxıblar. Zehtabı ölkədəki müxalif fikirlilərə qəddarlıqla divan tutulduğuna, islam rejimi mövqeyini möhkəmlətdiyinə görə mübarızə metodunu dəyişib.

Şəbüstərdə ata mülkündə yaşayan Zehtabi keçmiş mübarizələrin tarixini dərindən öyrənir və təhlil edib. O yəqin edib ki, ana dilində təhsil görməmiş, milli şüura yiyələnməmiş insanlar milli dövlət qura birmirlər. Qısa müddətdə qazanılmış uğurlar da əldən çıxır. Odur ki, Zehtabi Şəbüstərdə və Təbrizdə kurslar açaraq gənclərə ana dilini, milli tarixi öyrətməyə başlayıb.

Görkəmli filoloq 1991-ci ildə Təbrizdə “Azərbaycan dilinin qrammatikası” və “Müasir Azərbaycan ədəbi dilinin fonetikası”, 1992-ci ildə “Elm ül maani (semantizm)” və “Müasir Azərbaycan dilinin morfologiyası”, 1993-cü ildə “Qoy olsun on!” adlı hekayələr kitabını nəşr etdirib. Zehtabiyə böyük şöhrət qazandıran isə ikicildlik “İran türklərinin əski tarixi” kitabı olub. “Varlıq” jurnalında və başqa mətbuat orqanlarında onlarla məqalə, hekayə və şeir çap etdirən, gənc nəsilə ana dilinin düzgün yazı qaydalarını öyrədən Məmmədtağı Zehtabı milli haqlar uğrunda mübarizəni son nəfəsinədək davam etdirib.

Məhəmmədtağı Zehtabinin bioqrafları bildirirlər ki, 1998-ci ilin dekabrın 23-də Avropa səfərindən qayıtdıqan bir gün sonra milli haqlar uğrunda dönməz mübariz, məfkurə qəhrəmanı sayılan bu nadir ziyalı Şəbüstərdəki ata-baba mülkündə şübhəli şəkildə dünyasını dəyişib. Onun səpdiyi toxum isə yalnız İran türkləri arasında deyil, Türk dünyasında da yayılıb cücərir.

***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***

Azərbaycan kinosu – 125

# Ekran sənətimizin 60 yaşlı yaradıcılıq birliyi




**Bu il ekran sənətimiz üçün yetərincə əlamətdar ildir: Azərbaycan kinosunun 125, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının 100, Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) isə 60 yaşı tamam olur. Keçilən yola nəzər salanda milli kinomuzda xeyli fəxr ediləsi məqamların olduğu aşkar görünür.**

Bakı hələ 1898-ci ildə kinematoqrafiya ilə tanış olmuş, yeni əsrin əvvəllərindən neft sənayesinin inkişafı sayəsində təkcə Qafqazın yox, həm də Rusiya imperiyasının fəal kino mərkəzinə çevrilmişdir. İlk sənədli çəkilişlər, kino aparatlarının satışı, prokat kontorlarının açılışı, kinoteatrların inşası, ilk bədii film istehsalı cəhətdən də paytaxtımız ön sırada idi. Qafqaz və Orta Asiyada, hətta Yaxın Şərqdə ilk kino istehsalı şirkəti – Pirone qardaşlarının "Filma" aksioner cəmiyyəti də məhz Bakıda yaranmışdır. Regionda ilk dəfə bədii filmlərin çəkilişi burada gerçəkləşmişdir. İlk sənət birliklərinin məhz Bakıda meydana gəlməsi də qətiyyən təəccüb doğurmamalıdır.

1918-ci ildə kinematoqrafiyada çalışan qüvvələrin birləşməsi baş verdi – Bakı şəhərinin kinematoqrafiya və teatr qulluqçularının ittifaqı təşkil edildi. Bu, o zamanın ən diqqətəlayiq hadisələrindən idi. İttifaqa görkəmli aktyor və rejissor Abbas Mirzə Şərifzadə başçılıq edirdi. Kino işçilərinin peşə birliyi siyasi qarışıqlıq dövründə ekran və səhnə xadimlərinin öz hüquqlarını müdafiə etmək, kinoteatrların və teatrların fəaliyyətini canlandırmaq, rejissor və aktyorların gündəlik problemlərini yoluna qoymaq, tədricən bütün kino və teatr sənətçilərini əhatə etmək yönümündə mümkün olan tədbirləri görürdü. Məhz həmin tədbirlər nəticəsində dövrün mürəkkəb hadisələrindən az itkiylə çıxmaq mümkün olmuşdu.

1925-ci il martın 25-də Bakıda da Azərbaycan İnqilabi Kinematoqrafçılar Assosiasiyasının yaradılması məqsədilə şəhər kino işçilərinin və kino həvəskarlarının yığıncağı keçirilmişdir. Yığıncaqda sovet kinematoqrafiyasının vəziyyəti və vəzifələri müzakirə olunmuş, Moskva qurumunun proqramı əsasında Azərbaycan İnqilabi Kinematoqrafçılar Assosiasiyası (Az.İKA) yaradılmasının zəruriliyi qeyd edilmişdir. Lakin o dövrdə sovet kinosunda hələ də idarəetmə sisteminin kifayət qədər formalaşmaması üzündən, həm də sənətçilər totalitar rejimi tam qəbul etmədiklərinə görə, həmin təşkilat qısa müddət sonra "öz işlərini qura bilmədikləri" bəhanəsi ilə ləğv edilmişdir. Ekran sənətinin və kino xadimlərinin taleyi sovet dövründə incəsənət idarələri, kinematoqrafiya komitələri və nazirlikləri yanında yaradılmış kollegiyalardan, əslində isə, Sov.İKP MK və müttəfiq respublikaların MK-larının təbliğat-təşviqat və mədəniyyət şöbələrindən asılı olmuşdur.

1956-cı ildə İ.Stalinin "şəxsiyyətinə pərəstiş"in nəticələri aradan qaldırılmağa başlayanda, totalitar düşüncə tərzi bir qədər mülayimləşəndə kinematoqrafçılar fəallaşmışlar. Nəhayət, İ.Pıryevin rəhbərliyi altında yaradılmış təşəbbüs qrupu 1957-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə kinematoqrafçılar ittifaqlarının yaradılması barədə rəsmi "xeyir-dua" almışdır. Həmin ilin dekabrında Lətif Səfərovun rəhbərliyi altında Azərbaycan Kinematoqrafiya İşçiləri İttifaqının Təşkilat Bürosu yaradılmış, ekran sənəti birliyinin təsis edilməsi uğrunda çətin mübarizə başlanmışdır. Lakin ölkənin siyasi rəhbərliyinin kinematoqrafçılar təşkilatının yaranmasına soyuq münasibəti bu prosesin bir qədər də uzanmasına səbəb olmuşdur.

Nəhayət, 1963-cü il yanvarın 9–11-də keçirilən təsis qurultayında Kinematoqrafçılar İttifaqı rəsmi status almışdır. Həmin vaxtdan da qurum qarşısında qoyulan ideoloji tələblərə baxmayaraq, Azərbaycan ekran sənətinin təbliği, inkişafı, kino xadimlərinin maddi və mənəvi cəhətdən stimullaşdırılması yönümündə davamlı xidmət göstərir. İttifaq respublikada kinoya inzibati rəhbərliyi həyata keçirən Mədəniyyət Nazirliyi, Dövlət Kinematoqrafiya Komitəsi, film istehsalı ilə məşğul olan C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası ilə birgə milli kinomuzun formalaşmasına və inkişafına öz töhfəsini verir.

Təşkilatlanma prosesini və Lətif Səfərovun fəaliyyətini nəzərə almasaq, AKİ-nin rəsmən mövcud olduğu, az qala, 60 il ərzində quruma yalnız 2 görkəmli sənət adamı – Həsən Seyidbəyli və Rüstəm İbrahimbəyov başçılıq etmişlər. Lətif Səfərov İttifaqın özülünü qoymuşdursa, Həsən Seyidbəyli ilə Rüstəm İbrahimbəyov dövrün tələblərinə uyğun inkişaf naminə əllərindən gələni əsirgəməmişlər. Milli kinomuz Azərbaycanın hüdudlarından kənarda da tanınmışdır.

Beləliklə, bütün dövrlərdə AKİ daim yeni nəsil kinematoqrafçıların üz tutduğu yer, kinomuzun və ekran ustalarımızın maraqlarını qoruyan mərkəzə çevrilmişdir. Xüsusilə 1960-cı illərin sonlarında və 1970–1980-ci illərdə kinomuzun inkişafında şəxsiyyət amilinə böyük diqqət verilmişdir. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev daim bu qurumun qurultay və plenumlarında iştirak etmişdir. Onun təşəbbüsü və himayəsi ilə "Azərbaycanfilm" kinostudiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında xüsusi qərar qəbul edilmiş, "Dəli Kür", "Uşaqlığın son gecəsi", "Bir cənub şəhərində", "Bizim Cəbiş müəllim", "Gün keçdi", "Axırıncı aşırım", "Şərikli çörək", "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Nəsimi", "Ad günü", "İstintaq" kimi sanballı ekran əsərləri yaradılmışdır. O dövrdə ekran sənətçiləri yüksək fəxri adlara və mükafatlara layiq görülmüşlər. "Mozalan" satirik kinojurnalı, Kinoaktyor Teatrı, "Debüt" yaradıcılıq birliyi təşkil edilmişdir. Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda Azərbaycan kursu açılmış, kino mətbuatının fəaliyyəti təmin olunmuşdur. Ölkəmizdə ümumittifaq kino və televiziya filmləri festivalları keçirilmişdir.

AKİ müstəqillik dövrünə yeni nizamnamə ilə yanaşı, müasir fəaliyyət istiqamətləri ilə qədəm qoydu. Azərbaycan kinosunun inkişafı sahəsində qanunların qəbulu, daha sonra, dünyada mədəniyyətimizə şöhrət gətirən Beynəlxalq "Şərq-Qərb" kimi kinofestivalların keçirilməsi, Beynəlxalq Kino Məktəbinin yaradılması, çoxsaylı layihələrin gerçəkləşdirilməsi AKİ-nin təşkilatçılıq potensialının nəticəsi idi.

Müstəqillik illərində ölkə rəhbərliyinin milli mədəniyyətimizin vacib sahəsi olan kinematoqrafiyaya diqqət və qayğısı daha da artdı.

Azərbaycan mədəniyyətinin hamisi Heydər Əliyev və onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kino sənətimizin daha da inkişafı üçün böyük xidmətlər göstərdilər. Artıq neçə illərdir ki, kino sahəsinin struktur və idarəetmə cəhətdən təkmilləşdirilməsi yönümündə ardıcıl və məqsədyönlü addımlar atılır. Kino istehsalına dövlət dəstəyinin həcmi get-gedə artırılır, Mədəniyyət Nazirliyinin xətti ilə festivallar və müsabiqələr keçirilir. Kadr hazırlığı məsələsi diqqət mərkəzində saxlanılır, ekran ustalarımızın səsi dünyanın çox nüfuzlu festivallarından gəlir. AKİ də öz ənənələrinə sadiq qalaraq, hər zaman bu prosesdə fəal rol oynayır.

Azərbaycan Kinematoqrafçılar İttifaqı, eyni zamanda, ölkənin digər yaradıcılıq və ictimai təşkilatları dövlət orqanları ilə birgə milli mədəniyyətimizin inkişaf konsepsiyalarının işlənib hazırlanmasında da yaxından iştirak edir. Bu yaxınlarda Xalq artisti Rasim Balayevin rəhbərlik etdiyi AKİ ilə Xalq artisti Şəfiqə Məmmədovanın rəhbərlik etdiyi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının birləşməsi təşəbbüs və yaradıcılıq səylərinin əlaqələndirilməsi baxımından zəruri sayıldı. Yeni təşkilat Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayevin təklifi ilə Azərbaycan Kinematoqrafçılar Birliyi adlandırılıb. İnanırıq ki, vahid, yeni idarəetmə qurumu milli kinomuzun peşəkarlıq ənənələrini bundan sonra da layiqincə davam etdirəcək.

***Nəriman ƏBDÜLRƏHMANLI,***
***yazıçı-publisist***

# Qadın azadlığı milli kinomuzda

**İlk adı "Adətin məhvi" olan" İsmət" filmi Azərbaycanda qadın azadlığına həsr edilən ekran işlərindən biridir. Bu film Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə ölkəmizdə dövlət varidatı elan edilən kino əsərləri siyahısına salınıb.**

Qeyd edək ki, bu ekran əsəri haqqında ilk dəfə geniş təhlil hələ 1958-ci ilin avqust ayında qəzetimizdə (o vaxtkı "Kommunist") verilib. Daha öncələr qəzetin məsul katibi olmuş yazıçı Şəmsəddin Abbasov "Sovet Azərbaycanının kinosu" adlı məqaləsində "İsmət"dən ətraflı bəhs edib. Həmin tarixdən düz 65 il sonra gənc sənətşünas Ceyhun Mirzəli yenidən "İsmət"i yada salıb. Onun köşə yazısını təqdim edirik:



İlk azərbaycanlı qadın təyyarəçi Leyla Məmmədbəyovaya ithaf olunmuş "İsmət" filminin əsasını, eyni zamanda, doğmaları tərəfindən qətlə yetirilmiş Səriyyə Xəlilovanın dramatik taleyi təşkil edir. Quruluşçu rejissoru və ssenarinin həmmüəllifi Mikayıl Mikayılovdur. Səssiz (rus dilində titrlərlə) təqdim olunmuş film ötən əsrin 20–30-cu illərində gedən prosesləri əks etdirir.




...Evində bir arvadı ola-ola ikinci dəfə ailə quran Səmədin (Xeyri Əmirzadə) toyunda faciə baş verir. Əvvəlki həyat yoldaşı özünü yandıraraq öldürür. Buna şahid olan İsmət (Juka Mixelson) necə ağır həyat yaşayacağını artıq təxmin edir. O başına örtdüyü örpəklə üzünü gizlədir.

Sovet hakimiyyəti qurulsa da, mühafizəkar ailələr öz adətlərini qoruyub saxlamağa çalışırlar. Səmədlə İsmətin övladları olmur. Bu səbəbdən Səmədə yenə də evlənmək təklifi edilir. İsmət isə həkim müayinəsinə gedir. O, xəstəxanaya başqa qadınların həyat yoldaşları ilə gəldiyini görüb tənhalığına möhkəm kədərlənir. Əlində o zaman nəşr olunan "Şərq qadını" jurnalını tutmuş həkim onunla söhbət edir. Həmin jurnalın filmdə detal kimi işlənməsi İsmətin gələcək oyanışına bir ismarıcdır.

Əsas konflikt onun ər evinə dönməsi ilə başlayır. Həkimlərin qoyduğu diaqnozu açıqlayanda evdə dava düşür. Dünyaya övlad gətirə bilməyən Səməd qəzəblənərək özündən çıxır. Çünki o, öz zəifliyini həzm edə bilmir. Bundan sonra İsmət evdən qaçaraq fabrikə sığınır. İsmət ilk tabunu bununla yıxmış olur. Atası Yunus onun fabrikdə olmasını təsadüfən görür. Qızını zorla oradan ayırmaq istəsə də, fabrik rəhbərliyi buna mane olur. Bu fakt isə fabrikin cəmiyyət həyatındakı rolunu göstərir. Filmin bu epizodlarından yeni sovet quruluşunun fabriki bir ailə kimi əvəzləməsini görürük.

Film boyu Səmədin günlərini dükançı Qulunun yeməkxanalarında şərab içməklə keçirməsi əks olunur. İsmətin yeni həyata atılmasıyla paralel olaraq, bu kadrlar davam edir. Beləliklə, yeniliklə köhnəliyin mübarizəsi göstərilir.

İclaslarda çıxışlar edən ictimai fəal İsmət təsadüfən təyyarəyə minir və ilk uçuş zamanı külək onun çadrasını aparır. Çadranın atılması prosesi bu epizodla həllini tapmış olur. Lakin İsmət bundan narahat olur və başqa bir qadından çadra alaraq yenidən başına bağlayır. Bununla belə, şəhərdə İsmətin çadrasını atması xəbəri yayılır. İçkiyə qurşanan Səməd bundan bərk qəzəblənir. O dostu Qulu ilə birlikdə İsməti fabrikdən oğurlayıb aparmaq istəyir, ancaq niyyətinə çata bilmir. Onların fabrikin şüşəsini sındırması isə yeni qurulan sovet sisteminə bir etiraz kimi görünür.

İsmətin təyyarə ilə uçması onda pilot olmaq arzusu doğurur. İclas zamanı qadınlara bu barədə edilən təklif İsməti ürəkləndirir. Onun pilot kimi uçuşları keçmiş ər evində bomba kimi partlayır. Mətbuatda yayılan şəkillərə baxan keçmiş qayınanasının gözünə onun başqa kişilərlə qol-boyun olması görünür. Səmədin anası əməlli-başlı hirslənir və oğluna İsməti öldürməyi tapşırır.

Səmədin anasının yaxınları olan qadınlar İsməti aldadırlar: guya, atasının xəstə olması bəhanəsi ilə onu köhnə evlərinə çağırırlar. Orada Səməd İsməti öldürmək istəsə də, buna nail olmur. Beləcə, film boyu qorxaq, zəif göstərilən Səmədin kənardan yönəldilən məqsədinə çatması filmin ideyasını tamamlayır.

"İsmət" filmi qadın azadlığı ideyasının zəfəri ilə bitir.

***Ceyhun MİRZƏLİ***

# MƏDƏNİYYƏT XƏBƏRLƏRİ

**Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestri Rusiyanın Yekaterinburq şəhərində IX Beynəlxalq Nəfəs Alətləri Orkestrləri Festivalında ölkəmizi təmsil edib.**



Festivala bədii rəhbər-direktor, dirijor, Əməkdar incəsənət xadimi Əlibala Rzayevin başçılığı ilə 36 nəfərlik heyət qatılıb. Eyni zamanda, Əməkdar artist Aqil Cəfərovun rəhbərliyi ilə Rusiyanın Krasnoyarsk vilayətində fəaliyyət göstərən "Odlar yurdu" Azərbaycan Xalq Mahnı və Rəqs Ansamblı festivalda orkestrlə birgə çıxış edib.

***

**Azərbaycan və Rusiya pianoçusu, bəstəkar Riad Məmmədov "Live at The Pushkin Museum" albomunun işıq üzü görməsi münasibətilə Moskvada xüsusi konsert proqramı ilə çıxış edib.**




"Muzeon" parkında təşkil olunan konsertdə Riad Məmmədov konsertin birinci hissəsində İohann Sebastyan Baxın əsərlərini öz transkripsiyasında və bu əsərlərə improvizələri təqdim edib. Daha sonra proqram caz standartlarının ifası ilə davam edib.

***

**Dövlət Turizm Agentliyinin tabeliyində fəaliyyət göstərən "Şahdağ" Turizm Mərkəzinin və Azərbaycan Motoklublar Birliyinin birgə təşkilatçılığı ilə "Şahdağ motosiklet festivalı" keçirilib.**



İlk dəfə olaraq təşkil edilən festivalda ölkənin müxtəlif bölgələrindən 300-ə yaxın motohəvəskar iştirak edib. Onlar güclü və dəbli motosiklet, təcrübəli motosikletçi, uzağa yürüş, qol güləşi və digər müsabiqələrdə mübarizə aparıblar. Festival çərçivəsində kompleksin qonaqları üçün motohəvəskarlar tərəfindən ödənişsiz peşəkar təlimlər keçirilib. Şou proqramlar da maraqla qarşılanıb.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***



# 47 gənc xaricdə təhsil alacaq

**Elm və Təhsil Nazirliyindən verilən məlumata görə, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın növbəti iştirakçıları müəyyən olunub.**

Məlumatda bildirilir ki, qarşıdakı tədris ili üçün həyata keçirilən sənəd qəbulunun növbəti nəticəsi üzrə 47 namizəd müvafiq seçim qaydalarına aid meyarlara uyğun olaraq Dövlət Proqramı iştirakçısı adını qazanıb.

Beləliklə, 2023–2024-cü tədris ili üçün Dövlət Proqramı çərçivəsində, ümumilikdə, dünyanın 17 ölkəsinin nüfuzlu xarici ali təhsil müəssisələri üzrə 381 nəfər Azərbaycan vətəndaşı təhsil almaq imkanı əldə edib. Proqram iştirakçılarından 48 nəfəri cari il üzrə dünyanın 10 ən yaxşı universitetindən qəbul bildirişi alıb. Onlardan 9 nəfəri Harvard, 2 nəfəri Massachusetts Texnologiya, 2 nəfəri Oksford, 8 nəfəri London İmperial Colleci, 2 nəfəri ETH Zariç kimi nüfuzlu universitetlərdə təhsil almaq hüququ qazanıb.

***"Xalq qəzeti"***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
ASCO-nun tabeliyindəki idarələrə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 28 avqust 2023-cü il saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.
Ünvan-Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

BİLDİRİŞ

"Azərsu" ASC tərəfindən "Xalq qəzeti"nin 21, 22 iyul 2023-cü il və 4 avqust 2023-cü il tarixli nömrələrində "Pirşağı – Bilgəh şərq kanalizasiya kollektorunun tikintisi" və "Ceyranbatan – Maştağa - Nardaran magistral su kəmərinin bir hissəsinin və bir ədəd su anbarının tikintisi" işlərinin satın alınması üçün dərc edilmiş açıq tenderlərdə iddiaçının müraciətini nəzərə alaraq, tender təklifinin qəbulu müddəti uzadılaraq 14 sentyabr 2023-cü il saat 16.00-a, tender təkliflərinin açılışı isə 15 sentyabr 2023-cü il saat 16.00-a təyin olunmuşdur.
Həmçinin, malgöndərənlərin tenderə ilkin olaraq təqdim etdikləri sənədlərin təqdimatı müddəti müvafiq qaydada uzadılmış və 6 sentyabr 2023-cü il saat 16.00-a təyin edilmişdir.
Tender komissiyası

BEYNƏLXALQ HƏYAT

# Rusiya–Ukrayna müharibəsi: nə qələbəyə güman var, nə savaşa aman…

**Bu gün Rusiyanın Ukraynaya hücumundan bir il yarım vaxt keçir. Düz on səkkiz ay əvvəl, yəni 2020-ci il fevralın 24-də Rusiya Silahlı Qüvvələri qonşu, suveren ölkəyə qarşı hücuma keçiblər. Bu, o dönəmdə çoxları üçün gözlənilməz hadisə idi.**

İkinci Dünya müharibəsindən sonra belə böyük miqyasda müharibə olmamışdı. Mövcud beynəlxalq qaydalar Təhlükəsizlik Şurasının beş daimi üzvünün biri tərəfindən kobud surətdə pozulmuşdu. Moskva isə özünə haqq qazandıraraq başladığı müharibəni "Xüsusi hərbi əməliyyat" adlandırmışdı və bir neçə gün ərzində Kiyevi fəth edəcəyini düşünürdü. Lakin, bu, baş vermədi.

Rusiyanın "parlaq" qələbəsi ona görə baş vermədi ki, fədakar Ukrayna xalqı qeyri-adi hünər və qətiyyət göstərərək öz torpaqlarının müdafiəsinə qalxdı. Moskvada və dünyanın çox yerində bunu gözləmirdilər. Vəziyyəti belə görüb Qərb dövlətləri həm maliyyə, həm də silah-sursatla Kiyevi dəstəklədilər və hərtərəfli yardımlar bu gün də davam edir.

Müharibə Ukrayna torpağında gedir. Təbii ki, ən çox dağıntılara məruz qalan tərəf məhz Ukraynadır. Qeyd edək ki, bu qanlı savaş başlanan ilk andan bugünə qədər hər iki tərəfdən on minlərlə hərbçi və dinc sakin həyatlarını itirib. Onların arasında çox sayda uşaq, qoca və qadın var. Ukrayna əhalisinin, az qala, dörddəbiri qaçqın kimi ölkəni tərk etməyə məcbur olub.

Rusiya–Ukrayna müharibəsini şərti olaraq üç mərhələyə bölmək olar. Müharibənin ilk bir neçə həftəsi ərzində ruslar Ukraynanın şərqində və cənubunda xeyli ərazi ələ keçirə bildilər. Ötən ilin payız aylarından başlanan ikinci mərhələdə isə ukraynalı hərbçilər daha fəal idilər və Xarkov istiqamətində işğal olunan torpaqlarını düşməndən azad edə bildilər.

Çoxları müharibənin üçüncü, həlledici mərhələsinin Ukrayna Ordusunun uğurlu əks-hücum əməliyyatı ilə yadda qalacağını düşünürdü. Hələlik, ukraynalı əsgər və zabitlər uğurlu və genişmiqyaslı hərbi əməliyyatlar həyata keçirməkdə çətinlik çəkirlər. Fakt budur ki, Rusiya tərəfi dərin müdafiə sədləri yarada bilib və qarşı tərəfin əksər hücum həmlələrinin qarşısını ala bilir.

Hazırda Rusiya–Ukrayna müharibəsində cəbhənin yüz kilometrlərlə uzanan təmas xətti boyu ağır mövqe döyüşləri gedir. Ara-sıra tərəflər döyüşlərdə uğur qazandıqlarını iddia edirlər. Dünən UNİAN agentliyinin yaydığı məlumata görə, Ukrayna Silahlı Qüvvələri Zaporojye istiqamətində rusların birinci müdafiə xəttini yarıblar.

Ukrayna müdafiə nazirinin müavini Anna Malyar Ukrayna qoşunlarının Robotino kəndinə daxil olduqlarını təsdiqləyib. O bildirib ki, 47-ci briqadanın döyüşçüləri yerli sakinlərin "Bradley" BMP-lər vasitəsi ilə təxliyəsini təşkil ediblər. "Döyüşlər davam edir, rus hərbçiləri Robotinoyu artilleriyadan davamlı olaraq atəşə tuturlar", - A.Malyar özünün "Teleqram" səhifəsində yazıb və foto dərc edib.

ABŞ başda olmaqla, "Kollektiv Qərb" Ukraynaya hərbi dəstəyini gücləndirir. Məsələn, Hollandiyanın müdafiə naziri Kaysa Ollonqren Ukraynaya səfər edib və ukraynalı həmkarı Aleksey Reznikova "F-16" qırıcısının maketini hədiyyə edib. Bu barədə Reznikov "Twitter" səhifəsində məlumat yayıb. Nazir belə bir qeyd edib: "İlk "F-16" Hollandiyadan Ukraynaya gəlib! Böyük şahin ovu üçün geriyə sayım başladı!"



Müdafiə Nazirliyinin məlumatına görə, Kiyevdə keçirilən görüşdə Ollonqren və Reznikov cəbhədəki vəziyyəti, eləcə də Ukraynaya hərbi dəstək məsələsini müzakirə ediblər. Xatırladaq ki, Hollandiya Ukraynaya hərbi və hərbi-texniki yardım üçün artıq iki milyard avroya yaxın vəsait ayırıb.

Yeri gəlmişkən, bu günlərdə Danimarka hökuməti yaxın günlərdə döyüş təyyarələrini Kiyevə köçürmək niyyətində olduğunu açıqlayıb. Yerli KİV-lər xəbər verirlər ki, Danimarka Ukraynaya 19 ədəd "F-16" qırıcısı tədarük edəcək və ilk altı təyyarəni Yeni ilə qədər təhvil verəcək. 42 ədəd "F-16" təyyarəsi olan Hollandiyanın isə Ukraynaya nə qədər təyyarə verəcəyi məlum deyil.

Son günlər Rusiya və Ukrayna hərbçiləri bir-birinə qarşı raket hücumları zamanı pilotsuz uçuş aparatları – PUA-lardan geniş istifadə edirlər. Məsələn, dünən Rusiyanın Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən Moskva vilayəti və iki ölkə sərhədindəki Bryansk şəhəri üzərində Ukraynanın pilotsuz uçan aparatının vurulduğunu bildiriblər. Rusiya Müdafiə Nazirliyi Moskva bölgəsindəki hücumda iki dronun iştirak etdiyini və hər hansı tələfatın olmadığını qeyd edib.

Moskvanın meri Sergey Sobyanin "Telegram" kanalında bildirib ki, bir dron Moskvanın şimal-qərbindəki Krasnoqorsk ərazisində, digəri isə şəhərin qərbindəki Çastsı bölgəsində vurulub. "The Reuters" agentliyinin müxbirinin bildirdiyinə görə, Krasnoqorskda hündürmərtəbəli yaşayış binasına cüzi ziyan dəyib və yerə düşən parçalar bəzi avtomobillərə ziyan vurub.

Qeyd etməyə dəyər ki, Ukraynanın hava hücumları Moskva hava limanlarının bir müddət uçuşları dayandırmasına səbəb olub. Belə bir addım bundan əvvəl də Rusiyanın paytaxt bölgəsinə pilotsuz təyyarələrin hücumlarına cavab olaraq atılmışdı.

### Ekspert rəyi



**Aydın İBRAHİMOV,
BDU-nun xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor:**

– Rusiya–Ukrayna müharibəsinin başlamasından artıq 18 ay keçir. Lakin, gördüyümüz kimi, bu ağır savaş hələ sona çatdırılmaqdan çox uzaqdır. Ümumiyyətlə, bu müharibənin dünyada analoqu yoxdur, xüsusən də İkinci Dünya müharibəsi kontekstində. Adətən, çoxları bu növ müharibələrin keçmişdə qaldığına və bir də heç vaxt təkrarlanmayacağına inanırdılar. Lakin həyatın gedişatını bilmək olmur.

Ən qəribəsi və təəssüf doğuran hal isə odur ki, əsrlər boyu bir dövlətdə dinc yanaşı yaşayan iki qardaş slavyan xalqı ilyarımdır ki, bir-birinə qarşı amansızcasına vuruşur.

Fikrimizcə, əsas səbəb bir tərəfdən ukraynalılarla ruslar arasında sivilizasiya fərqi, digər tərəfdən isə 1917-ci ildə Rusiyadakı bolşevik qiyamından sonra və İkinci Dünya müharibəsi başlamazdan əvvəl Ukrayna ərazisinin genişlənməsidir.

Digər mühüm səbəb, şübhəsiz ki, həm Rusiya, həm də Ukraynanın aparıcı respublikaları olduğu SSRİ-nin gözlənilmədən müəmmalı şəkildə dağılmasıdır. Bütövlükdə, nəticə çıxarmaq və proqnoz vermək çətindir. Rusiya ilə Ukrayna arasındakı müharibə getdikcə Rusiya Federasiyası ilə Qərb arasında toqquşmaya çevrilmişdir.

Təbii ki, iki dövlət arasında aparılan danışıqlar konstruktiv olsaydı, müharibənin qarşısını almaq olardı. Lakin müzakirələr əvvəldən konstruktiv deyildi. Almaniyanın sabiq Kansleri Angela Merkel deyibdir ki, "biz Ukrayna ilə bağlı danışıqların uğursuz olması üçün çalışaraq tərəfləri müharibəyə hazırlamışıq". Bura sözün bitdiyi yerdir. Yəni, əlavə şərhə ehtiyac yoxdur!

Fikrimizcə, müharibənin başa çatmasından danışmaq hələ tezdir, amma hər şey ola bilər. Hələlik, tərəflərin mövqeləri diametral şəkildə ziddiyyət təşkil edir. Ukrayna bütün ərazilərinin tam azad edilməsini tələb edir, Rusiya isə işğal olunmuş torpaqların Rusiyanın tərkibinə daxil olmasına Kiyevin razılıq verməsi şərti ilə sülhə razıdır.

Qərb deyir ki, Ukrayna nə vaxt istəsə, müharibəni bitirəcəyik, gözləyək, görək, nə olur.

Rusiya həmçinin bildirib ki, "Suxoy" qırıcı təyyarələri Rusiyanın Qara dənizdəki qaz hasilat müəssisələrinin ərazisində fəaliyyət göstərən Ukrayna kəşfiyyat gəmisini məhv edib. Müdafiə Nazirliyinin bəyanatında insidentin dəqiq harada baş verdiyi barədə məlumat da daxil olmaqla, əlavə təfərrüatlar verilməyib.

*Ceyran CƏFƏRLİ,
Məsaim ABDULLAYEV,
"Xalq qəzeti"*

# Azərbaycan ilk medalını qazanıb

**Bakıda keçirilən atıcılıq üzrə 53-cü dünya çempionatı idmansevərlərə əsl bayram əhval-ruhiyyəsi yaşadır. 100-dən çox ölkənin ən sərrast atıcıları bu nüfuzlu yarışda mükafatlar uğrunda gərgin mübarizəni davam etdirirlər.**

Sevindirici haldır ki, ən güclülərin sırasına Azərbaycan atıcıları da adlarını yazmağa nail olublar. Belə ki, 25 metr məsafəyə tapançadan standart atəş açma yarışında komandamız gözəl nəticə əldə edərək ikinci yeri tutub. "Üçlük"də Zeynəb Sultanova, Nigar Nəsirova və Nərminə Səmədova yer alıblar. Bu növ üzrə fərdi yarışlarda çinli Sixuan Fenq 572 xalla qızıl medala sahib olub. Gümüş medala Yunanıstandan olan məşhur atıcı Anna Korakaki yiyələnib. Bürünc medalı isə Avstriyadan olan Silviya Şteyner alıb. Komanda yarışında Çin birinci, Hindistan üçüncü olub.

Kişilər arasında 25 metr məsafəyə standart tapançadan atəş açma növündə isə hindistanlı Sinq Amanpreet 577 xalla qızıl medala sahib olub. İkinci yeri Koreyadan olan atlet Qunhyeok Li, üçüncü yeri isə Fransadan olan Kevin Çapon tutublar.

**Güllə atıcılığı üzrə yığmanın baş məşqçisi İradə Aşumova "Xalq qəzeti"nə açıqlamasında komandamızın qələbəsindən danışıb:** "Yarışda rəqabətin səviyyəsinin yüksək olması təbiidir. Çünki dünya çempionatında hər bir ölkə ən güclü atıcıları ilə çıxış etməyə çalışır. İdmançılarımız öz potensiallarından maksimum istifadə etmək üçün ciddi səylər göstərirlər. Təqdirəlayiq haldır ki, qızlarımız bu mötəbər yarışın gümüş medalına layiq görüldülər. İdmançılar onlara bəslənilən ümidləri doğrultmaq üçün maksimum çalışırlar. Ümid edirəm ki, atıcılarımız yeni qələbələri ilə xalqımızı sevindirəcəklər".

Qaliblərə medalları gənclər və idman naziri Fərid Qayıbov təqdim edib. **Nazir komandamızın uğurlu çıxışı ilə bağlı təəssüratlarını media nümayəndələri ilə bölüşüb:** "Təbii ki, hamımız medal gözləyirdik. Nəhayət yığmamız medal əldə etdi. Çox istəyirik ki, gümüş medal sonuncu olmasın. İdmançılarımız yenə çıxış edəcəklər. İnanıram ki, onlar sona kimi mübarizə aparıb medalların sayını artıracaqlar. Azərbaycan Atıcılıq Federasiyasını və təşkilatçıları da təbrik edirəm. Bu yarış çox gözəl təşkil olunub. Bunu biz demirik. Beynəlxalq federasiyaların, qitə qurumlarının, başqa ölkələrin nümayəndələrinin hər biri bu yarışın yüksək səviyyədə təşkil edildiyini deyirlər. Bu da göz önündədir".

**Komandamızın heyətində ikinci yeri tutan Zeynəb Sultanova bu medalın beynəlxalq yarışlarda ilk mükafat olduğunu bildirib:** "Açığı, bu cür nəticə gözləmirdim. Sonluğun belə olması gözəldir".



Dünyanın ən güclülərinin qatıldığı mötəbər yarışda qadınlar arasında 8-ci, komanda yarışında isə 2-ci olan atıcımız gələcək planları barədə də danışıb: "3-4 ildir atıcılıqla məşğul oluram. Düşünürəm ki, olimpiadaya vəsiqə qazanmaq üçün hələ ki, təcrübəm azdır. İndi ikinci yeri tutdum. Gələcəkdə daha yüksək nəticələr qazanmaq üçün öz üzərimdə daha çox çalışacağam".

Çempionat qadınlar arasında 50 metr məsafəyə tüfəngdən uzanaraq atəş açma növündə yarışlarla davam edib. Bu növdə isveçrəli Anya Senti 627.7 xalla qızıl medala sahib olub. Gümüş medalı Almaniyadan olan atlet Annett Müller, "bürünc"ü isə Finlandiyanı təmsil edən Marianne Palo boynundan asıb. Komanda yarışında isə İsveçrə birinci, Norveç ikinci, Avstriya üçüncü olub.

Günün son yarışında atletlər 50 metr məsafəyə tüfəngdən uzanaraq atəş açma növündə qarışıq komanda şəklində mübarizə aparıblar.

Yan Loxbihler və Çiara Leonedən ibarət İsveçrə komandası 1249.7 xalla qızıl medallara sahib olub. Gümüş medallara da İsveçrədən olan atletlər Kristoff Duer və Sarina Hitz yiyələnib (1247.2 xal). Üçüncü pillədə Çin atıcıları Linşu Du ilə Siyu Xia (1245.9 xal) qərarlaşıblar.

**Dünya çempionu olan İsveçrə komandasının qadın atıcısı Çiara Leone uğurları barədə deyib:** "Müəyyən çətinliklər oldu. Amma biz qalib olmağı bacardıq. Biz bu yarışa çox yaxşı hazırlaşmışdıq. Ölkəmizdə bu növ üçün xüsusi məşq etmişdik. Öz aramızda danışmışdıq ki, dünya çempionu olmaq üçün nə etməliyik. Hətta ikinci pillənin də bizim olmasını istəyirdik. Buna nail olduq. Bakı Atıcılıq Mərkəzi çox möhtəşəmdir. Biz bir neçə dəfə mərkəzdə olmuşuq. Burada hər dəfə atış eləməkdən məmnunuq".

Komanda yarışında Çin birinci, Almaniya ikinci, Koreya üçüncü yerləri tutublar.

*L.QURBANOVA,
"Xalq qəzeti"*

# "Qarabağ", Sloveniya, "Mixaylo"…



**Azərbaycan çempionu beş il əvvəlki kimi, yenə Sloveniyanın Lyublyana şəhərində yerli "Olimpiya" klubunun qonağıdır. Bu dəfə UEFA Avropa Liqası turnirinin pley-off mərhələsinin ilk görüşündə.**

Ağdam komandasının bu rəqiblə iki raunddan ibarət döyüşünün (cavab oyunu avqustun 31-də Bakıda olacaq) necə nəticələnəcəyindən və Avroliqanın qrup yarışlarına kimin vəsiqə qazanacağından asılı olmayaraq, təmsilçimiz öz tarixində onuncu dəfə avrokubokların qrup mərhələsində oynayacaq. Azərbaycan çempionu hələ avqustun 17-də Helsinkidə HİK üzərində qələbədən sonra Konfrans Liqasının qrup turnirinə vəsiqəni özünə təmin etmişdir. Ancaq kim bilmir ki, Avropa Liqası Konfrans Liqasından üstündür. Ona görə də "Qarabağ" Azərbaycan xalqının mərd oğlu, 1918-ci ildə Bakının Novxanı kəndində anadan olub, 1944-cü ildə Sloveniyanın Vitovle kəndində faşist işğalçılarına qarşı mübarizədə qəhrəmancasına həlak olmuş "Mixaylo" ləqəbli Mehdi Hüseynzadənin dəfn olunduğu ölkəyə yüksək iddialarla, yəni, beş il əvvəlki qələbəni təkrar etmək əzmi ilə yola düşmüşdür.

Ölümündən sonra, 1957-ci il aprelin 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Mehdi Hənifə oğlu Hüseynzadə Sloveniyada da daim hörmətlə yad edilir. Böyük Vətən müharibəsi dövründə, 1943-cü ildə Yuqoslaviya və İtaliya partizanlarına qoşulub Adriatik dənizi sahillərində qəhrəmancasına döyüşərək, göstərdiyi igidliyə görə Sloveniya sakinlərinin də böyük hörmətini qazanmış azərbaycanlı qəhrəmana bu ölkədə yüksək ehtiram heç vaxt unudulmur. Bu ilin may ayında Nova Qoritsa şəhərində Mehdi Hüseynzadənin anadan olmasının 105-ci ildönümü münasibətilə keçirilmiş tədbirdə Azərbaycan və Sloveniya parlamentləri dostluq qrupu üzvlərinin, ictimaiyyət nümayəndələrinin qəhrəmanın xatirəsini anmaları da ona dərin ehtiramın ifadəsi idi.

Qayıdaq Lyublyanaya, Avroliqanın pley-off mərhələsinin ilk görüşünü keçirəcəyimiz şəhərə. Qurban Qurbanovun komandası 2018-ci ilin iyul ayında bu şəhərdə Çempionlar Liqası turnirinin birinci təsnifat mərhələsində "Olimpiya" ilə qarşılaşmış və qalib gəlməyi bacarmışdı (1:0). Onda Azərbaycan futbolçularının səfərdə vurduqları yeganə qol növbəti mərhələyə adlamaq üçün bizə kifayət etmişdi. Həmin oyundan bir həftə sonra Bakıda keçirilmiş cavab görüşündə hesab açılmamış və iki qarşılaşmanın yekununda növbəti mərhələnin qapısını "Qarabağ" açmışdı.

Bəs bu dəfə necə olacaq? Belə düşünmək olarmı ki, Ağdam komandası "Olimpiya"ya qalib gəlməyin yolunu artıq bilir? Bu suallara bu gün Bakı vaxtı ilə saat 22-də başlanacaq oyundan sonra cavab alacağıq. Görüşdə ədaləti Georgi Kabakov başda olmaqla bolqarıstanlı hakimlər briqadası qoruyacaq. UEFA bir həftə sonra Tofiq Bəhramov adına Respublika stadionunda oynanılacaq cavab matçında isə hakimliyi İspaniya Futbol Federasiyasının nümayəndələrinə həvalə etmişdir. Lakin hələlik iş başında Kabakovu görəcəyik.Onun final işarəsindən sonra kim sevinəcək?

*Oqtay BAYRAMOV,
Əməkdar jurnalist*

# 11 Balkan ölkəsi Ukraynaya dəstək bəyannaməsi imzalayıb



**Yunanıstan və daha 10 Balkan ölkəsi Ukrayna–Balkan sammitində Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib. Afina Bəyannaməsini imzalayan ölkələr arasında Rusiyanın regionda ən yaxın müttəfiqi sayılan Serbiya da var. Bu barədə Ukrayna prezidentinin dəftərxanası xəbər verib.**

Xatırladaq ki, Ukrayna Prezidenti Volodimir Zelenski sammitdə birbaşa iştirak etmək üçün avqustun 21-də Yunanıstana gəlmişdi. Sammit başa çatdıqdan sonra Afina Zirvə Bəyannaməsi qəbul edildi. Sənədin mətnində deyilir: "Rusiyanın Ukraynaya təcavüzü Avropa üçün dönüş nöqtəsidir. Bu, Avropa qitəsində təhlükəsizlik, sülh və sabitlik üçün təhlükədir. Avropanın sabit və təhlükəsizliyinə uzun müddət töhfə vermiş qanunlar və prinsiplər pozulub. Biz revizionizmin fəlakətli nəticələrinin bir daha şahidi oluruq. Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində demokratiya və qanunun aliliyinə əsaslanan müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə sarsılmaz dəstəyimizi bildiririk".

Bəyannamədə daha sonra bildirilir ki, müharibə cinayətləri, mülki şəxslərə hücumlar, infrastrukturun məhv edilməsi, digər vəhşiliklər cəzasız qalmamalıdır və bütün məsuliyyət daşıyanlar cavab verməlidir: "Qəti şəkildə inanırıq ki, bu gün bu bəyanat həmişəkindən daha aktualdır. Balkanlar, Ukrayna və Moldova Respublikası ümumi Avropa irsini, tarixini və gələcəyini bölüşür. Ukrayna və Moldovanın lazımi islahatları başa vurduqdan sonra onların üzvlük prosesində növbəti addımları atması üçün dəstək olmaq öhdəliyimizi ifadə etdik".

Xatırladaq ki, Çin və Cənubi Afrika Respublikası rəhbərləri də BRİCS sammitində bəyanat veriblər. Si Tsinpin və Siril Ramafos bildiriblər ki, Ukraynadakı müharibənin siyasi həlli üçün səylərini davam etdirəcəklər. Ölkə liderləri hələ də əmindirlər ki, münaqişənin yalnız danışıqlar yolu ilə həlli mümkündür. "Hər iki tərəf razılaşıb ki, dialoq və danışıqlar Ukraynada münaqişənin həlli üçün yeganə əlverişli variantdır və beynəlxalq hüquqa əsaslanmalıdır. Sülh danışıqlarını təşviq etməyə və münaqişənin siyasi həllində konstruktiv rol oynamağa davam edəcəyik".

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 180 (30296) 24 avqust 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

### Dünya birinciliyində 3 medal



***Xorvatiyanın paytaxtı Zaqreb şəhərində cüdo üzrə yeniyetmələr arasında keçirilən dünya çempionatının ilk günündə komandamız 1 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıb.***

Oğlanlar arasında 50 kiloqram çəki dərəcəsində yarımfinalda cüdoçularımız Məhəmməd Məmişov gürcüstanlı Şota Baçoşviliyə, Nihad Məmişov isə qazaxıstanlı idmançı Nurbol Askara qalib gələrək finala yüksəliblər. Həlledici mərhələdə N.Məmişov komanda yoldaşı M.Məmişovla mübarizədən qalib ayrılaraq qızıl medala layiq görülüb.

Komandamızın digər üzvü — 55 kiloqram çəki dərəcəsində mübarizə aparan Mirxaliq İskəndərov isə bürünc medal uğrunda görüşdə fransalı Adrian Mivovanı məğlub edib.

### Nicat Abasov tay-brekdə mübarizə aparacaq



***Azərbaycan şahmatçısı Nicat Abasov Bakıda keçirilən Dünya kubokunda üçüncü yer uğrunda cavab görüşünü keçirib.***

Qara fiqurlarla mübarizə aparan 28 yaşlı qrossmeyster ABŞ təmsilçisi Fabiano Karuanaya məğlub olub. Şahmatçılar qalibi ayırd etmək üçün tay-brekdə mübarizə aparacaqlar.

Final uğrunda Rameşbabu Praqqnanandha (Hindistan) və 5 qat dünya çempionu Maqnus Karlsenin (Norveç) cavab oyunu da heç-heçə başa çatdığı üçün şahmatçılar tay-brekdə görüşəcəklər.

### Tələbələrimiz Yekaterinburqda yarışırlar




***Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında Azərbaycan idmançılarının uğurlu çıxışları davam edir.***

Dünən qadın güləşi üzrə Birgül Sultanova (65 kq) və boks üzrə Zeynəb Rəhimova bürünc medal qazanıblar. Bununla da komandamızın qazandığı medalların sayı 8-ə (7 gümüş, 1 bürünc) çatıb.

Qeyd edək ki, avqustun 31-dək davam edəcək Beynəlxalq Universitet İdman Festivalı Yekaterinburq şəhərinin 300 illik yubileyinə həsr edilib. 36 ölkədən müxtəlif universitetlərin tələbələri 14 idman növündə qüvvələrini sınayırlar.

Festivalda Azərbaycanı 10 təhsil ocağından 54-ü kişi 15-i qadın olmaqla 69 idmançı təmsil edir. Təmsilçilərimiz 8 idman növündə - badminton, stolüstü tennis, boks, güləş, taekvondo, futzal, üzgüçülük, sambo üzrə yarışırlar.

### 4 boksçumuz bürünc medalı təmin edib



***Azərbaycan millisinin daha 2 üzvü Sloveniyanın Maribor şəhərində məktəbli boksçular arasında keçirilən Avropa birinciliyində yarımfinala yüksəlib.***

Boks Federasiyasından "Xalq qəzeti"nə bildirilib ki, 1/4 finalda Şahin Aslanov (52 kq) ingiltərəli Bill Smitt , Adil Zalov (63 kq) isə Yan Mikuliç (Xorvatiya) üzərində 5:0 hesablı qələbə qazanıblar. Hər 2 boksçu yarımfinala yüksəlməklə özləri üçün minimum bürünc medalı təmin ediblər.

Bununla da, Azərbaycan millisinin yarımfinala vəsiqə qazanan idmançılarının sayı 4-ə çatıb. Bundan əvvəl İsmayıl Vəliyev (70 kq) və Səftər Məmmədzadə (90 kq) də 1/4 finalda rəqiblərini məğlub ediblər.

Avropa birinciliyi avqustun 25-də başa çatacaq.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

## Texnologiya yenilikləri

### Yeni Moto G84 smartfonu

***Məşhur insayder Evan Blass bir müddət öncə Moto G54 smartfonunun real fotolarını ictimaiyyətə təqdim etmişdi.***



İndi isə o, Moto G seriyasının hazırlanmış digər bir yeni modelinin render fotolarını təqdim edib. Söhbət, Moto G84-dən gedir. Təqdim olunan render fotolardan da aydın olur ki, Moto G84 smartfon bazarına minimum 3 fərqli görünüşdə – qırmızı, qara, ağ rəngdə satışa buraxılacaq.

Xarici görünüşünə görə o, "Motorola"nın son zamanlarda təqdim etdiyi smartfonlara çox bənzəyəcək. Smartfon yastı ekran ilə təchiz olunacaq və onun yuxarı mərkəz hissəsində ön kamera üçün nəzərdə tutulmuş kiçik dairəvi çıxıntı yerləşəcək. Moto G84 özündə ikili arxa kameranı birləşdirəcək.

Verilən məlumata əsasən, arxa kamera optik stabilizasiya dəstəkli 50 MP-lik olacaq. Moto G84-ün nə zaman təqdim olunacağı isə hələ məlum deyil.

*"Xalq qəzeti"*

### "WhatsApp"ın daha bir funksiyası

***"AppStore"da "WhatsApp" messencerinin yeni ictimai versiyası peyda olub, onun əsas xüsusiyyəti videomesajların dəstəklənməsidir. Yeni funksiya istifadəçilərə bir dəqiqəyə qədər qısa videomesajlar mübadiləsi etməyə imkan verir. Videonu yazmaq üçün dialoq qutusunda mikrofonun təsviri olan düyməni basıb saxlamaq və görünən menyuda "video" rejimini seçmək lazımdır.***



Daha bir yeni xüsusiyyət videozəng zamanı ekranı paylaşmaq imkanıdır. İndi istifadəçilər öz iş masası şəklini birbirilərinə videoçatlarda yayımlaya bilərlər. WABetaInfo yazır ki, bu rejim müxtəlif iş və maişət tapşırıqlarının birgə həlli üçün əlverişlidir. Desktop paylaşımını aktivləşdirmək üçün "WhatsApp" tərtibatçıları videozənglər zamanı görünən interfeysə yeni düymə əlavə edib.

"WhatsApp"ın təsvir olunan funksiyalarına çıxış əldə etmək üçün messencerin App Store-dan 23.16.78 nömrəli versiyasını yükləmək lazımdır. WABetaInfo xəbərdarlıq edir ki, bəzi istifadəçilər üçün seçimlər dərhal deyil, yeniləməni quraşdırdıqdan bir müddət sonra görünə bilər.

*Zülfiyyə ZİYA, "Xalq qəzeti"*

## Maraq dünyamız

### Şahdağda motosiklet festivalı

**"Şahdağ" Turizm Mərkəzinin və Azərbaycan Motoklublar Birliyinin birgə təşkilatçılığı ilə "Şahdağ motosiklet festivalı" keçirilib.**



Şahdağda ilk dəfə olaraq təşkil edilən festivala ölkənin müxtəlif bölgələrindən 300-ə yaxın motohəvəskar iştirak edib.

İki gün davam edən tədbirdə motosikletçilər təşkilatçılar tərəfindən hazırlanan müxtəlif müsabiqələrdə güclərini sınayıblar. Yarışda motohəvəskarlar güclü motosiklet, dəbli motosiklet, təcrübəli motosikletçi, uzağa üzmə, qol güləşi və digər müsabiqələr üzrə birincilik uğrunda mübarizə aparıblar. Öz bacarıq və istedadları ilə seçilən qaliblər münsiflər heyəti tərəfindən müxtəlif mükafatlarla təltif olunublar.

Tədbir çərçivəsində kompleksin qonaqları üçün motohəvəskarlar tərəfindən ödənişsiz peşəkar təlimlər keçirilib. Həm yerli, həm də əcnəbi qonaqlar tərəfindən böyük maraqla qarşılanan festival çərçivəsində iştirakçılar və turizm mərkəzinin qonaqları üçün şou proqramlar təşkil edilib.

*"Xalq qəzeti"*

### Azərbaycanlı aktrisa Rusiyada filmə çəkilir

**Bakı Bələdiyyə Teatrının aktrisası, Əməkdar artist Hüsniyyə Mürvətova Rusiyanın istehsal etdiyi serialda baş rolda oynamaq üçün dəvət alıb.**



Bu barədə mətbuata məlumat verən aktrisa bildirib ki, çəkilişlər artıq başlayıb. "Rusiyanın "Домашний" ("Ev") kanalının sifarişi ilə "GP Sinema" şirkətinin istehsalı olan "Абрикосовая горечь" – "Ərik acıcı" mini serialında əsas rollardan birinə, Məleykə roluna çəkilmişəm. Serialda Məleykə türk qayınanadır. Kürəkənim Camal rolunda isə azərbaycanlı aktyor Rüstəm Cəbrayılov oynayır. Çəkilişlərin bir hissəsi Belarusda, bir hissəsi Rusiyada aparılıb.",– deyə aktrisa sözlərinə əlavə edib.

Qeyd edək ki, film tezliklə ekranlarda işıqlandırılacaq.

*Ceyran CƏFƏRLİ,*
*"Xalq qəzeti"*

## Sənət inciləri

### "Torpağın arzusu"

**Azərbaycan təbiətinin misilsiz tərənnümçüsü xalq rəssamı Səttar Bəhlulzadənin yaradıcılığında "Torpağın arzusu" əsəri xüsusi yer tutur. Hazırda Azərbaycan Milli İncəsənət Muzeyini bəzəyən bu əsər 1963-cü ildə çəkilib.**



Tabloda Bakı ilə Sumqayıt arasında yerləşən Ceyranbatan gölü öz əksini tapıb. Bu göl paytaxtı içməli su ilə təmin edən mənbələrdən biri olduğundan onun ötən əsrin altmışıncı illərinin əvvəllərində qurumağa başlaması ciddi narahatlıq doğururdu. Təbii ki, rəssam da bu hadisəyə biganə qala bilməzdi. Həmin günlərdə Səttar Bəhlulzadə də bu acı mənzərəni öz gözləri ilə görmək üçün Ceyranbatana yollanır.

Azərbaycan təbiətinin göz oxşayan, insanı şövqə gətirən mənzərələri ilə qarşılaşmağa alışmış rəssam buradakı acınacaqlı mənzərədən sarsılır. Onun gözünə quruluqdan çat-çat olmuş torpağın altından işıqlı dünyaya baxmağa can atan tək lalə qönçəsi sataşır. Rəssam hiss edir ki, bu yerdə suların çağlaması, cadarlanmış torpağın, ən çox da bu lalənin arzusudur. Əyilərək lalənin boy atmasına əngəl olan kəsəyi yavaşca çıxarır. Qönçənin və torpağın arzusunu duyur. Emalatxanaya qayıtdıqdan sonra isə aləmə haray salan "Torpağın arzusu"nu ərsəyə gətirir...

Əslində, nə o vaxt, nə də sonralar, təəssüf ki, bu gölün ətrafı laləliyə dönmədi. Amma rəssamın təxəyyülünün nəticəsi olan "Torpağın arzusu" əsərində bizə təlqin edilən odur ki, su olan yerdə gözəllik də olacaq, lalə də açacaq. Ona görə də, rəssamın bir çox tablolarında olduğu kimi, bu əsərdə də təbiət olduğundan da əlvan, təravətli və daha canlıdır. Rəssam həmişə deyərmiş ki, Azərbaycan torpağının hər hansı guşəsini tanımaq üçün yox, tanıtmaq üçün çəkirəm. Ceyranbatan gölünün taleyinə həssas münasibət – "Torpağın arzusu" da bu sevgidən qaynaqlanmışdır.

*Leyla HADİ, tələbə-jurnalist*

### Eynşteyndən ilhamlanan sənətkar

**Türkiyənin tanınmış tekstil rəssamı Belkıs Balpınar Almaniyanın Düsseldorf şəhərindəki "Anna Laudel Qalereyası"nda toxuculuq texnikasının avanqard üslubunda yaratdığı sənət əsərlərini nümayiş etdirir.**



Qeyd edək ki, rəssam dahi alim Albert Eynşteynin nisbilik nəzəriyyəsindən ilhamlanır, toxuculuğun texnika və naxışlarını adi forma və naxışlardan ayıraraq zaman, məkan və ölçü baxımından yenidən təsəvvür edir.

Yeri gəlmişkən, Balpınar toxunma prosesində unikal texnikadan istifadə edir. Bu qeyri-adi toxuma üslubu fonda maraqlı kölgələr yaradır, üçölçülü sənət əsərlərinə dördüncü ölçü əlavə edir. Bu, Eynşteynin açıqladığı məkan və zaman anlayışına bənzəyən, bəşəriyyətin qavrayış sahəsindən kənar bir ölçüdür.

*F. SALMANOVA, "Xalq qəzeti"*

## Sağlamlıq

### Alzheymer nədən yaranır?

**Virciniya Texnologiya İnstitutunun alimləri Alzheymer xəstələrinin beynini tədqiq edərək, xəstəliyə səbəb olan çatışmazlığı tapıblar. Onlar demensiyalı xəstələrin donor beyinlərini tədqiq ediblər. Məlum olub ki, bu xəstələrin beynində vacib antioksidantlar – lütein, likopin və tokoferollar normadan 2-3 dəfə azdır.**



Gözün torlu qişası da lütein və zeaksantini qidadan alaraq, özündə toplayır. Bu, görməni yaxşılaşdırır və fotoreseptorları qoruyur.

Alimlər məhz makulyar piqmentin sıxlığının müayinəsi ilə baş beyində lüteinin konsentrasiyasını təyin ediblər. Nəticələr göstərib ki, karotonidlər və antioksidantlarla zəngin qidalar yemək Alzheymer diaqnozu qoyulan xəstələrdə də koqnitiv pozulmaları yavaşıda bilər.

Digər araşdırmaya görə, Aralıq dənizi (bu barədə internetdə məlumat çoxdur) və MİND (sinir sistemini və zehni performansı gücləndirən) pəhrizləri demensiya və Alzheymerə qarşı yaxşı təsir göstərir.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

## Proqnoz

### Bəzi yerlərdə yağış yağacaq, külək əsəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 24-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman olacaq. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Gecə 22-27°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şimal və qərb rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26° , gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova anası

**GÜLBİKƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4868
SİFARİŞ 2122
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00